**Bələdiyyə vəkilləri seçkisi**

səh. 152. “istehqaqlı (senzovik) Bələdiyyə Məclisi”: yalnız müəyyən şərtləri daşıyan şəxslərin, xüsusən şəhərdə müəyyən qədər əmlaka sahib olanların seçilmək hüququna malik olduğu Məclis.

**Hekayət**

səh. 154. “Süleyman Salman oğluna tərəf döndü”: qəzetdə “Salman Süleyman oğluna tərəf döndü” getmişdir.

“Mart hadisatı”: 1918-ci ilin Mart hadisələri, bolşevik və erməni daşnak quldurlarının Azərbaycan xalqına qarşı törətdikləri soyqırım nəzərdə tutulur.

“Süleyman Salman oğlu buna razı oldu”: qəzetdə “Salman Süleyman oğlu buna razı oldu” getmişdir.

səh. 155. “o könüllünün Məşhədi Murtuza olduğunu anladım”: qəzetdə “Məşhədi Murtuza” yerinə səhvən “Məşhədi Fərəc” getmişdir.

**Nəzarətlərdə**

səh. 157. “edadi məktəbləri”: təhsildə ali məktəbdən əvvəlki mərhələyə məxsus olan, şagirdləri ali məktəbə hazırlayan məktəblər.

“Səlimə xanım Xuramoviç”: güman ki, “Sara xanım Xuramoviç” olmalı idi.

**Çörək bahalanması haqqında**

səh. 159. “yaddan çıxarmağa yol verir”: qəzetdə “verir” yerinə “verməyir” getmişdir.

**Bakı xəbərləri**

səh. 161. “Nijni-Priyutski”: Bakıda, indiki Süleyman Rəhimov küçəsi.

**Azərbaycanda**

səh. 163. “Xocabəyli quldurları”: Xocabəyliləri Şahsevənlərin bir tayfası idi.

**Teatro və musiqi**

səh. 167. “Tamaşaçı”: bu imza Seyid Hüseyn Sadıqzadəyə məxsusdur.





**Bazar, 9 noyabr 1919-cu il, nömrə 317**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 15 səfərül-müzəffər sənə 1338. 9 təşrini-sani 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## SİRK “MODERN”

Yekşənbə günü noyabrın 9-nda 1919-ncu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi [ardı].

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Qəti mübarizə Kalişeviç – Buyvolov; 2-nci: Naməlum tələbinə görə Naməlum – Zakoroyko; 3-ncü: Raqenbaum – Yemelyanov.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Bu günlərdə dünyada ən məşhur pəhləvan Boqatıryovun benefisi olacaqdır.

*14023*

## BAKI MÜSƏLMAN PARAXODÇULARININ CƏMİYYƏTİ

Petrovski körpüdən Lənkəran və Astaraya hər gün saat beşdə paraxod gedir. Yük və sərnişin həmin körpüdə qəbul olunur. Biletlər dəxi orada satılır. Ənzəli, Məşhədsər, Bəndər Gəz, Həsənqulı, Güməştəpə, Ləngərud, Rudsər və Şahsavara dəxi həmin körpüdən yük qəbul olunur.

Noyabrın 12-sindən Salyana yük və sərnişin paraxodu işləyəcəkdir.

Cəmiyyətin kontoru Dəniz qırağında, Rəsulovun kontorunda. Telefon nömrəsi: 3-88 və 57-61.

*Bakı Paraxodçular Bürosu*

*14026*

## GÜRCÜSTAN-ERMƏNİSTAN ETİLAFI

Gürcüstan və Ermənistan cümhuriyyətlərinin həyati-siyasiyyəsində 3 təşrini-sani şayani-diqqət [diqqətəlayiq] bir tarixədd [hesab] oluna bilər.

Gürcüstan-Ermənistan arasındakı müzakirati-sülhiyyə eyi bir surətdə davam edib, nəticədə bir etilafa müncər oldu [razılaşma ilə nəticələndi].

Hər iki cümhuriyyət həyatında müsbət və vəlud [səmərəli] bir surətdə başlayan mükalimati-siyasiyyənin [siyasi danışıqların] gələcəkdə daha da ümidbəxş bir nəticəni istihdaf edə biləcəyi [hədəfə götürə biləcəyi] qənaəti verməkdədir.

Gürcüstan və Ermənistan arasındakı etilaf, şübhəsiz ki, yalnız bu iki cümhuriyyətin həyati-siyasiyyəsinə aid deyil, bilümum [ümumiyyətlə] Zaqafqaziya cümhuriyyətlərinin istiqbal [gələcəklərinə] və səlamətlərinə də şamildir.

Zaqafqaziyada mənafeyi-müştərəkələrini idrak edərək ümumi bir etilafı lazım bilən cümhuriyyətlər, ümum [bütün] dövlətlər qarşısında da Zaqafqaziya demokratiyasının hüquqi-milliyyə və siyasiyyəsini tanıtdırmağa bəzli-səy etmiş [səy göstərmiş] olarlar.

Zaqafqaziya cümhuriyyətlərinin müqəddəratı o qədər məhəlli və mevzii [yerli və lokal] bir məsələ şəklini almışdır ki, üç cümhuriyyətin anlaşıb da hər umuruna [işinə] hakim olması dərəcədə heç bir qüvvətin bu cümhuriyyətlərə təsir və nüfuz edə bilməsi mümkün deyildir.

Gürcüstanla Ermənistan arasında keçən sənə hüdus edən [meydana gələn] müharibə, yeni təşəkkül etmiş Zaqafqaziya cümhuriyyətləri həyatında pək ağır bir təsir hüsula gətirir, hər iki millət haqqında sui-təfəhhümlər [yanlış anlaşılmalar] üzündən çıxan bu vuruşmanın həqiqi bir uzlaşma ilə nəticələnməsi, həqiqətən, arzu olunurdu.

Avropai bir həyati-milliyyə və siyasiyyə altında yaşamaq istəyən Qafqaziya millətləri, heç şübhəsiz, hər şeydən əvvəl ali mənfəətlərini dərpiş ilə [nəzərə almaqla] milli müştərək əlaqələri naminə, əlbəttə ki, müttəhid [birgə] bir dil, mötəlif [münasib; razılaşdırılmış] bir sahə, müttəfiq bir çarə də bulmalıdırlar.

Gürcüstan-Ermənistan etilafı ümumi bir anlaşma nöqteyi-nəzəri ilə Zaqafqaziya həyatında iştə ilk atılmış bir xütvə [addım] olaraq tələqqi edilə [qiymətləndirilə] bilər.

Filhəqiqə [doğrudan da], məşhur bir kəlamdır ki, ixtilaf etməyincə etilaf eyləmək mümkün deyildir. Qüvvətlər nə qədər ayrılar, nə dərəcə öz daireyi-hərəkətlərində infirad edərsə [təklənərsə], onların birləşmələri, anlaşmaları da o qədər müsmir [səmərəli, faydalı] olar. Federalizm, yaxud konfederalizm əməliyyatda [praktikada] bariz həqiqətlər hüsula gətirdiyi kimi, federə, yaxud konfederə halına daxil olmuş millətlər arasında da o qədər əlaqə və rabitələr qüvvətlənməkdədir.

Əvvəla ayrılmaq, sonra birləşmək. İştə həyati-həqiqiyyənin tələb etdiyi bir əsas.

Gürcüstan-Ermənistan arasında əqd edilmiş olan etilaf şimdiki halda tranzit haqqında olub, ərazi ixtilafları üçün hər iki hökumətin etilaf təriqinə [razılaşma yoluna], yaxud da həkəm (arbitraj) üsuluna müraciətləri şərt qonulmuşdur.

Demokratiyanın ən məqul [ağlabatan] və son bir mərcəyi [müraciət yeri] də həkəm (arbitraj) üsuludur: bütün ixtilafları, bütün nifaq və nizaları [konfliktləri] bitərəf və yaxud beynəlmiləl bir heyəti-hükkam [hakimlər heyəti] hüzurunda hər iki tərəfin riza və müvafiqəti [razılığı, uzlaşması] ilə həll etmək.

İştə, haqqına razı olmayanlar üçün ən son bir təklif.

Gürcüstan və Ermənistan arasındakı etilafın əsl mühüm cəhəti ixtilaflı məsələlər haqqında silah və qandan təvəqqi və ehtiraz edilməsini [çəkinilməsini, özünü saxlamağı] təmin etdiyidir. Bu etilafı biz məmnuniyyətlə tələqqi və təbrik edəriz.





Çünki bu dərəcə etilafbinlik [razılaşma tərəfdarı olmaq] Gürcüstan və Ermənistan həyatında ilk dəfə görülən şeydir. Hər iki cümhuriyyət arasındakı etilafa görə, Ermənistandan Gürcüstana, Gürcüstandan Ermənistana tranzit haqqında hürriyyəti-tammə verilir. Ermənistan Gürcüstana, Gürcüstan Ermənistana bilaqeydü-şərt [qeydsiz-şərtsiz] mallarını keçirə biləcək.

Bundan Gürcüstanın Ermənistan qədər faydası olmaz. Çünki Ermənistandan Gürcüstana aparılacaq mal pək az bulunduğu halda, Ermənistana gedəcək mallar Gürcüstanda pək çoxdur.

Fəqət etiraf etməli ki, Zaqafqaziyanın həman hər tərəfində olan iqtisadi böhran amillərindən biri də Zaqafqaziya cümhuriyyətləri arasındakı qüyudatın [bağların] bulunması, ağır şəraiti-iqtisadiyyə ilə yek-digərlərinə mərbut [bir-birlərinə bağlı] olmalarıdır. Əgər Zaqafqaziya cümhuriyyətləri arasında gərək tranzit və gərəksə gömrük haqqında ümumi bir anlaşma tapılsa, əmin olmalıdır ki, Zaqafqaziyanın ümum demokratiyası [bütün xalqı] üçün faydalı bir iş görülmüş olar.

Hər halda, Gürcüstan və Ermənistan arasında əqd edilən bu etilaf, irəlidə Azərbaycan və Ermənistan arasındakı anlaşmaya da qismən təsir edəcəyi üçün hali-hazırdakı siyasi vəqaye [hadisələr] içərisində ən mühümünü təşkil etdiyini söyləyə biləriz.

Zaqafqaziya cümhuriyyətlərində daha inkişaf etməmiş bir çox qabiliyyəti-siyasiyyə məknuzdur [gizlənmişdir] ki, sırası və mövsümü gəldikcə bunların həyatımızda cari olması və amiyanə [avamcasına] düşüncələr altında yuvarlanan bəzi sinif və cəmiyyətlərin də yeni siyasi istiqamətlərlə munis ola [ünsiyyət qura] bilmələri, əlbəttə, lazımdır. Bunu təmin etmək isə müqtədir diplomat və siyasilərin hünərlərindən asılıdır.

Zaqafqaziya cümhuriyyətləri böyük dövlətlərə qarşı gərək siyasiyyat və gərəksə diplomatiyada ibtidai bir haldadırlar. ..... ediləcək məsələləri hərb, hərb ilə həll ediləcək məsələləri sülhlə həll etmək qədər bacarıqlıq hələ bu təzə cümhuriyyətlərdə tərəqqi etməmişdir. Bununla bərabər, hər üç cümhuriyyət arasında ara-sıra hiss edilməkdə olan anlaşmaq, birləşmək lüzum və ehtiyacı bizə göstərir ki, siyasiyyatda da təkamülə doğru yürüməyə qabiliyyətimiz vardır.

Gürcüstan və Ermənistan arasında əqd edilmiş olan bu etilaf da iştə bunu isbat edir.

Ümidvar olalım ki, Gürcüstan ilə etilaf yolunu bulmağa müvəffəq olan Ermənistan Azərbaycan ilə də anlaşıb müştərək və müttəhid [birgə] bir dil bulsun, müştərək və müttəhid mənafe naminə də üç cümhuriyyətin üçlü etilaf ittifaqı mümkün olsun.

*Ə[hməd] H[əmdi Qaraağazadə]*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*6 təşrini-sani iclası*

İclas doktor Həsən bəy Ağayevin sədarəti, Əhməd Cövdət Pepinovun katibliyi ilə saat 12.13 dəqiqədə açılır.

Sədr ruznameyi-müzakiratı [müzakirə gündəliyini] elan edir:

1) Bakıda fəhlələrin işlək yerlərində miqdarsız içki və ispirto işlənməsinin önünü almaq haqqında qanun layihəsinin 3-cü qiraəti;

2) Zaqatala şəhərinə faizsiz olaraq 10 il müddətinə 70 min manat borc verilməsi haqqında qanun layihəsinin 3-cü qiraəti;

3) Teatro tamaşalarından alınan vergilərin tənqisi [azaldılması] haqqında qanun layihəsi;

4) Ağstafa gömrükxanasının iştatasının [ştatının] qüvvətləndirilməsi haqqında qanun layihəsi;

5) Azərbaycan dəmiryol mövqifində [stansiyasında] Xudat və Yalama posta-teleqraf şöbələrinin məmur siyahısı haqqında qanun layihəsi;

6) Posta-Teleqraf Nəzarəti idarəsində olan məmurların ixtisarı haqqında qanun layihəsi;

7) Sosialistlərin hökumətə sualı;

8) Şamaxı qaçqınları barəsində hökumətə sual.

**Sədr** - Daxil olmuş kağızları elan edir. O cümlədən məlum olur ki, 10-cu nömrədən Parlaman üzvlüyünə keçmiş Yusifəli Əliyev Ticarət və Ərzaq naziri müavini olduğundan, onun əvəzinə Məclisi-Məbusan üzvlüyünə Məhəmməd Yusif Cəfərov intixab edilir [seçilir].

İşbu məktub mandat komisyonuna göndərilir.

Sonra Həlimə xanım Safrasyan tərəfindən Parlaman sədrinə yazılmış uzun bir məktubda özünün Ərəş uyezdində [Ağdaş qəzasında] olan bir çox yerlərini və 22 otaqdan ibarət evini Cümhuriyyət sərvətini artırmaq üçün təsis ediləcək məktəbə bağışlayır. Parlaman, Xanım Safrasyanı alqışlayır.

Sonra Parlaman üzvü Vinoqradov 2 həftədən artıq üzrsüz olaraq iclaslarda hazır olmadığından, onun Parlamandan ixrac edildiyi məlum edilir. Növbədəki məsələyə keçilir.

Məsələ fəhlə rayonlarında içki satışının mən'i [qadağan edilməsi] xüsusunda qanun layihəsinin 3-cü qiraətidir. Bayram Niyazi [Kiçikxanov] oxuyur. Sədr səsə qoyur. 17 maddədən ibarət olaraq 3-cü qiraətdə etirazsız, birsəslə qəbul edilir.

2-ci məsələ Zaqatala şəhərinə 70 min manat faizsiz borc verilməsi barəsində qanun layihəsinin 3-cü qiraətinə keçilir.

Sədr izahat verir ki, bu para birdəfəlik buraxıldığı üçün 3-cü qiraətə ehtiyac yoxdur. Binaənileyh [ona görə], növbədən götürülür.

Teatro tamaşalarından alınan vergilərin ixtisarı haqqında qanun layihəsinin müzakirəsinə keçilir. Məruzəçi sifəti ilə Ağabəyov Rza bəy minbəri-xitabətə çıxıb bu xüsusda məlumat verir. Məlum olur ki, Parlaman tərəfindən bu yaxın zamanlarda qəbul edilən 40 faiz vergi nəhayət dərəcədə artıqdır. Bunun üçün Dövləti Teatro icarədarı Amiraqo Maarif Nəzarətinə müraciət edib, bu verginin ləğv edilməsini istəyir. Amiraqo təqdim etdiyi hesabdan anlaşılır ki, onun ayda 585 min manat xərci var, bu xərci 22 günə təqsim etdikdə [böldükdə], hər teatro tamaşası ona 26,618 manata tamam olur. Əksərən teatroya tamaşaçı da az gəlir. Budur ki, zərər edir. Böylə halda 40 faiz vergi verməsi, onu teatro işlərini buraxmağa məcbur edəcəkdir.





Maarif Nəzarəti teatronun sənayeyi-nəfisəyə [incəsənətə] bir xidməti olduğunu nəzərə alaraq, bu verginin ixtisarını təklif edir. Maliyyə-Büdcə komisyonu da bunu qəbul etmiş, fəqət komisyonda bir neçə rəylər olmuşdur. Onları birər-birər oxuyur.

**Malxazov** - Rusca söylədiyi nitqində etiraf edir ki, teatro biletlərinə qoyulan vergi hədsizdir. Bunun üçün də teatro biletləri nəhayət dərəcədə baha olur. Misal göstərərək deyir ki, Tiflisdə Hökumət teatrosunun birinci cərgəsi 50 manatdır. Burada isə 150 manatdır. Hətta Gürcüstan və Ermənistanda teatro işlərinin tərəqqisi üçün hökumət öz xəzinəsindən təxsisat [vəsait] belə buraxmışdır. Bunun üçün təklif edir, ancaq Nəzarətin layihəsi qəbul edilib, teatro biletləri vergidən azad edilsin. Çünki teatro biletləri vergidən azad edilərsə, o zaman təbiəti ilə biletlər ucuz olar. Biletlərin ucuzlaşması hər kəsə teatroya getməyə imkan verər.

**Ağamalıoğlu** - Söylədiyi nitqində deyir ki:

İngiltərədə hər şeyə vergi qoyulmuşdur. Bir ingilis ancaq öldükdən sonra vergidən xilas ola bilərmiş. Hətta ölüdən vergi alınırmış. İngiltərədə yalnız bir şeydən vergi alınmayırmış. Bu da teatro imiş.

Natiq çox təəccüb edir ki, Azərbaycan Cümhuriyyətində, hər məmləkətdə vergidən azad olan teatrodan vergi alınır. Teatronun xalqa fikircə nə qədər tərəqqi verdiyinə işarə edərək deyir ki, hankı millətdə ki, teatro yoxdur, o, tərəqqi edə bilməz.

Sonra natiq hökuməti tənqid edərək deyir ki, bizim vəzirlərimiz pulu nərədən çıxaracaqlarını bilməyib, teatro biletlərinə vergi qoyur. Halbuki bir çox pul çıxacaq yerlər vardır. Təklif edir ki, teatro biletləri vergidən tamamilə azad edilsin.

Sırada natiq olmadığından, son söz məruzəçiyə verilir.

**Ağabəyov Rza bəy** - Natiqlərə cavab verir ki, hər nə qədər Maarif naziri vergilərin ləğvini xahiş etmişsə də, Vükəla Şurası onu qəbul etməmiş, yalnız bu vergiləri azaltmaq istəmişdir. Bu onun üçündür Vükəla Şurası məmləkətin maliyyə işlərini Maarif Nəzarətindən daha iyi bilir.

Natiq əlavə edir ki, əgər vergilər tamamilə ləğv edilsə belə, bundan camaat faydamənd olmayıb, teatroçular mənfəətbərdar olacaqlar. Bunun üçün vergilərin ləğvi biletlərin ucuzlanmasına səbəb olmayacaqdır. Təklif edir ki, vergilər tamamilə ləğv edilməyib, 50 faiz əskilsin.

**Sədr** - Varid [daxil] olan təklifləri oxuyur.

Əvvəlinci təklif "Müsavat" fraksiyonu tərəfindəndir. Təklifdə vergilərin 50 faiz əskilməsi ilə 2-ci maddənin ləğvini tələb edir.

2-ci təklifdə teatroların tamamilə vergidən azad edilməsi istənilir.

Məruzəçi izahat verir ki, Maarif naziri tamam teatrolardan verginin ləğvini xahiş etməmişdir. O, yalnız o teatrolar vergisini ləğv edir ki, onlar sənayeyi-nəfisəyə xidmət edirlər. Başqa teatrolar vergidən azad olunmasınlar.

**Sədr** - Layihənin 2-ci qiraətinə keçməsini səsə qoyur. Qəbul edilərək 2-ci qiraətə başlanır.

Birinci maddə oxunur.

**Mehdi bəy Hacınski** - "Müsavat" firqəsinin təklifindən məlumat verir. Deyir ki, teatroların hankısı sənayeyi-nəfisədir, hankısı deyildir, onları yek-digərindən ayırmaq çətin olacaq. Ona görə 50 faiz əskilməsi üzərində israr edir.

**Əbilov İbrahim** - Teatro tamaşalarına xalqın az getdiyinə işarə edərək, bunun biletlər baha olmasından irəli gəldiyini söyləyir. Təklif edir ki, teatroların qapısını xalqın üzərinə açmaq üçün cəmi teatrolar vergidən azad olsun.

**Rza bəy Ağabəyov** - Vergilərin azalmasından və yaxud tamamilə ləğv edilməsindən ancaq bir neçə teatroçuların mənfəətbərdar olduğuna işarə edərək, komisyonun qərarı üstdə dayanır.

Sədr əvvəldə oxunan təklifləri təkrar edir. Birinci təklif ki, tamam teatrolar hər bir vergidən azad olsun, səsə qoyulur. Əksəriyyəti-rəylə [səs çoxluğu ilə] təklif qəbul edilməyir.

2-ci "Müsavat"ın təklifi səsə qoyulur ki, teatrolara fərq qoymadan cümləsinin vergisi 50 faiz əskilsin, əksəriyyətlə təklif qəbul edilir.

Birinci maddə bu surətlə tərtib edilir:

Teatro tamaşalarından alınan vergilər 50 faiz əskilir.

2 və 3-cü maddələr oxunur. 2-ci maddə birinci maddə ilə əlaqədar olduğundan ləğv edilir. 3-cü maddəyə ki, qanun 22 oktyabrdan tətbiq edilsin, "Müsavat" tərəfindən təklif varid olur, qanunun qəbul edildiyi gündən tətbiqi təklif edilir. Səsə qoyulur, əksəriyyətlə qəbul edilir.

Layihənin 3-cü qiraəti gələcək iclasa buraxılaraq növbədəki məsələyə keçilir.

4-cü məsələnin məruzəçisi Əmircanov hazır olmadığından, növbədən götürülür. 5-ci məsələyə keçilir. Xudat və Yalama post və teleqraf şöbələrinin məmurları siyahısı haqqındakı qanun layihəsi haqqında məruzəçi sifəti ilə Rza bəy Ağabəyov məlumat verir. Məmurların neçə nəfər olacağı və maaşlarının miqdarı oxunur. Etirazsız qəbul edilir.

Növbədəki Ağstafa gömrükxanası ştatasının qüvvətləndirilməsi haqqında qanun layihəsinin müzakirəsinə keçilir. Məruzəçi sifəti ilə Əbdüləli bəy Əmircanov bəyanat verir. Məlum olur ki, Bakıdan sonra gömrükxana işlərində Ağstafa gömrükxanası birinci mövqe işğal edir. Get-gedə gömrükxana və tamojnı işləri artır. Buna görə axır vaxtlarda bir çox şikayətlər gəlir. Mallara vaxtında baxıla bilməyir. Bu da əksər vaqonların səhərdən axşama kimi orada qalıb gözləməsini mövcib olur. Maliyyə Nəzarəti bu halları nəzərə alaraq, həman gömrükxana ştatasının artırılmasını təklif edir. Maliyyə-Büdcə komisyonu da Nəzarətin işbu qanun layihəsini qəbul edib, Parlamandan təsdiq edilməsini rica edir.

**Camalbəyov** - Bir neçə məmurların artması ilə vaqonların təxirə uğramadan gedib-gələmməyəcəklərini söyləyir. Çünki Ağstafada hamı sərnişinlər axtarılırlar. Bu axtaranlar da müəyyən deyillər. Natiq deyir ki, poyezdləri orada hər kəs axtarır. Hətta depo naçalnikinin müavininin sərnişinləri axtardığını da gördüm.

Natiq təklif edir ki, qulluqçuların ədədi artmaqla işlər qaydası ilə getməyəcəyi üçün oraya vətən və millətini sevən adamlar, qulluqçular təyin edilməlidir.





**Ağa Aşurov** - Qulluqçuların artmasına əsasən zidd olmadığını bəyan edir. İşlərin yaxşı getməməsinə səbəb qulluqçulara yaxşı baxılmadığını söyləyir. Məruzəçidən sual edir ki, qulluqçuların istirahəti təmin olunmuşmu? Sonra jandarmlar haqqında danışır. Deyir ki, jandarmlar barəsində bir çox sözlər eşidirik. Bu jandarmlara artıq əhəmiyyət verməmək lazımdır. Onlar hər nə bilirlər edirlər. Jandarmların kimə tabe olduqları məlum deyildir. Tamojna işi Maliyyə Nəzarətinə aid olduğundan, başqalarının bu işə qarışmağa haqqı yoxdur.

**Əmircanov** *(məruzəçi)* - Natiqlərə cavab verir. Deyir ki, əlbəttə, 8 nəfər qulluqçunun işini 4 nəfər görəcək olarsa, işlər yaxşı getməz. Jandarmalar tamojnı işlərinə baxmayır, onlar polis işi görürlər.

Sonra Ağa Aşurova cavab verir, deyir ki, mən öylə bilirəm ki, qulluqçular vaqonlarda yatmayırlar. Çünki mövqiflərdə [stansiyalarda] xidmətçilər üçün bir çox binalar vardır. Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri də bu barədə bir çox hazırlıqlar yapır.

Sonra rica edir ki, işbu layiheyi-qanuniyyə Maliyyə-Büdcə komisyonunun qəbul etdiyi surətdə qəbul edilsin.

Sədr layihənin 2-ci qiraətinə keçməsini səsə qoyur. Qəbul edilir. Mehdi bəy [Hacınski] maddəbəmaddə oxuyur. Səsə qoyularaq qəbul edilir.

Növbədəki məsələyə, posta və teleqraf məmurlarının ixtisarı barəsindəki qanun layihəsinə keçilir. Məruzəçi sifəti ilə Rza bəy Ağabəyov izahat verir. Məlum olur ki, hökumətin qərardadına görə, Posta və Teleqraf naziri Vükəla Şurasına [Nazirlər Kabinetinə] öz idarəsinin məmurlarının əskilməsi barəsində bir qanun layihəsi təqdim etmişdir. Bu vaxtadək orada 35 məmur varmış, indi 25 məmur olacaqdır. Ləvayehi-qanuniyyə [Qanun layihələri] komisyonu buna baxıb qəbul etmiş, Parlamandan da qəbulunu rica edir.

Layiheyi-qanuniyyə etirazsız qəbul edilir. Sosialistlərin hökumətə verdikləri suala keçilir. Hökumət namından [adından] [Xudadad bəy] Məlikaslanov izahat verir. Deyir ki, keçən iclasda sosialistlər tərəfindən hökumətə bir sual verilib, nə üçün hökumət sədrinə ev əşyası alınmaq üçün bir milyon manat buraxılmasının səbəblərini bilmək istəmişdilər.

Natiq hökumət üzvlərinin ev əşyası almaya təvanaları [gücləri] olmadığından bəhs edir. Əlavə edir ki, hökumət sədrini bir çox əcnəbi nümayəndələri ziyarət edirlər. Bu ziyarətlər əksərən hökumət sədrinin evində vaqe olur. Hökumət sədrinə layiq bir müxəlləfat [ev əşyası, mebel] lazım gəlirdi. Son zamanlarda general Harbordun vürudu [gəlişi] üzərinə hökumət, təsəvvür edilən [nəzərdə tutulan] bu ev müxəlləfatının alınmasına lüzum gördü. İxtiyarında olduğu 70 milyonluq fonddan para buraxdı.

Natiq bunun qanundankənar bir iş olmadığını izah edir. Deyir ki, vəzirlər öz evlərində hər növlə olsa keçinə bilərlər, lakin əcnəbi nümayəndələri yanında öylə keçinmək düz deyildir.

**Əhməd Cövdət** - Kəndilərinin sualı üç maddədən ibarət olduğunu söyləyir. Birinci maddə, bu gün hökumət istefada olduğundan, böylə təxsisat nədən ötrüdür? 2-nci, bu iş nə üçün Parlamandan keçməmişdir? 3-ncü, bir dəfə ki mebel

alınmış, ikinci kərə yenə bir bu qədər mebel alınır? Bu üç maddəyə hökumət nümayəndəsinin izahatı onları qane etmədiyini məlum edir.

**Sədr** - Sual müəllifləri qənaət hasil etmədiklərinə görə, sual istizah [sorğu] surətini alıb gələcək iclaslardan birinə qalır, – deyir.

2-ci suala hökumət tərəfindən Hidayət bəy Sultanov cavab verir:

Şamaxı qaçqınları barəsində verilən suala cavab verməyə hökumət tərəfindən məmur oldum. Hökumətə verilən sual Şamaxı qaçqınları və Şamaxının yenidən tikilməsi barəsində idi. Bu xüsusda 5-6 ay əvvəl hökumət tərəfindən bir komisyon tərtib olunub Şamaxıya göndərilmişdi ki, gedib şəhərin nərədə – öz əvvəlki yerindəmi və yaxud başqa bir yerdəmi tikilməsi barəsində məlumat gətirsin. Bu vaxtadək o komisyondan qəti bir cavab yoxdur. Çünki komisyon üzvləri şəhərin nərədə tikilməsi xüsusunda qəti bir qərara gəlməmişlər. Bununla bərabər, bunun üçün lazım gələn paranın nərədən və nə qayda ilə alınması da hökumət tərəfindən hələ həll edilməmişdir. Komisyondan cavab alandan sonra, para məsələsini hökumət həll etdikdən sonra şəhərin tikilməsinə başlanacaqdır.

2-ci qaçqınlar məsələsidir ki, Şamaxı qaçqınlarının halına baxılmayır. Bu böylə deyildir. Məmləkətimizdə olan qaçqınların hamısına – istər Şamaxıdan olsun, istər İrəvan və Zəngəzurdan olsun – hökumət bir nəzərlə baxır və kömək edir.

Bu qaçqınların da əksəri kəndlidir. Kəndlilərə lazım olan qədər müavinət etməkdən hökumət acizdir. Çünki hazırda əldə nə toxum, nə kotan və nə də yer vardır. Bunları hazırlamaq bir-iki ayın işi deyildir.

Dağılmış evlərin yenidən tikilməsi barəsində hökumət qərardad etmişdi ki, onlara meşədən ağac verilsin, öz qüvvəsi ilə evini tikdirə bilərsə lazım olan ağac və taxtasını meşədən ala bilər. Kotan, balta və bu kimi şeylər isə hökumətdə hazırda yoxdur.

Toxum barəsində, hökumətin təklifi ilə Ziraət Nəzarəti [Əkinçilik Nazirliyi] hökumətə məlumat vermişdir. Hökumət də bu barədə bir layihə düzəldib Parlamana təqdim etmişdir.

Parlamanda hələ ona baxılmamışdır. Əgər Parlaman ixtiyar verərsə, indi qış keçdiyindən, yazda kömək olunar.

Sual müəllifi Mehdi bəy Hacıbababəyov hökumətin cavabından qənaət hasil etmədiyini bəyan edir. Bu da istizah şəklini alıb gələcək iclaslara təxir edilir. Vaxt gec olduğundan iclas saat 3-ün yarısında qapanır.

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan simsiz mövqifi tərəfindən qəbul edilmişdir)*

**8 təşrini-sani**

*(Bolşevik xəbərləri)*

**Hərbi əməliyyat**

Murman tərəfdə bizim hissələrimiz Onej gölünün qərb kənarı ilə yürüş edərək düşmənə külli tələfat verməklə Kappeselqa mövqifindən [stansiyasından] 30 fərsəx qərbə bir neçə kəndi işğal etmişdir.

Fin körfəzi səvahili [sahilləri] dairəsində bizim qoşunlarımız Xovaşi nəhri ətrafında yenidən bir neçə kənd işğal etmişdir. Yürüş davam edir.

Yamburq cəbhəsində Krasnoye Selodan 80 fərsəx qərb tərəfə ciddi vuruşmalar olur. Bizim hissələrimiz tərəfindən əsir və qənimət alınmışdır.

Luj dairəsində - Bizim yürüş edən hissələrimiz vuruşma ilə Dvinsk mövqifini [stansiyasını] və Luqadan 60 fərsəx şimal-qərbə olan bir neçə kəndi işğal etmişdir.

Qdov dairəsində - Qdovun 20-25 fərsəxliyində bizim qoşunlarımız bir neçə kənd və yüzdən yuxarı əsir almışdır.

Polotsk altında bizim hissələrimiz düşmənin Qərbi Dvina nəhrindən keçmək istədiyini rəf etmişdir [qarşısını almışdır].

Novoqrad-Volınski, Jitomir və Kiyev dairələrində xırda vuruşmalar vaqe olur.

Çerniqov dairəsində - Bizim hissələrimiz vuruşma ilə Çerniqov şəhərini işğal etdi.

Sefsk dairəsində - Bizim üçün Sefsk altında müvəffəqiyyətli vuruşmalar davam edir.

Kursk cəbhəsində - Fatej yolu uzunu ilə bizim qoşunlarımız düşməni Fatejin 60 fərsəxliyində Spava nəhrinin qərb tərəfinə atmışdır.

Kastornov cəbhəsində Kastornovun 10 fərsəx şərqində və 5 fərsəx şimalında bizim üçün müvəffəqiyyətli vuruşmalar davam edir. Düşmən şiddətli müqavimət göstərir.

Liski dairəsində - Liski mövqifindən 20 fərsəx şimala ciddi vuruşmalar davam edir.

Novoxopyorsk dairəində - Düşmənin güclü qüvvələri ilə olan vuruşmadan sonra bizim hissələrimiz Povorino mövqifindən qərbə olan istehkamatın cənubuna tərəf geri çəkilmişdir.

Buzuluk və Komolna nəhirlərinin aşağı məcrasında bizim üçün müvəffəqiyyətli vuruşmalar davam edir.

Tsarıtsın cəbhəsində - Trarıtsından 60 fərsəx şimala tərəf bizim hissələrimiz düşmənin hücumunu dəf etməkdədir. İki top, mitralyoz və başqa qənimətlər alınmışdır. Qeyri hissələr təbəddülatsızdır. [Digər hissələrdə dəyişiklik yoxdur.]

Ural dairəsində - Kəşfiyyatçıların əməliyyatı.

İşim dairəsində - Biz tərəfdən İşim işğal edildikdə 300 əsir və başqa qənimətlər alınmışdır. Qənaimin [qənimətlərin] miqdarı məlum deyilir. Şimalda yürüşümüz davam edir.

Tobolsk dairəsində - Qırmızı hissələrimiz Tobolskdan şərqə 14 fərsəx irəli hərəkət etmişlərdir.

**Fransa saldatlarının inqilabi hərəkətləri**

Qomel - Sevastopoldan gəlmiş olan yoldaşın dediyinə görə Fransa saldatları inqilabi hərəkət göstərməkdədirlər.

Fransızlar tərəfdən "Kommunist" adında bir qəzetə verilir. Fransızlar Denikinçilərə çox pis nəzərlə baxmaqdadırlar. Hətta Könüllü ordu zabitanlarından bir neçəsini dəxi döymüşdürlər.

**Əmələ və səfərbərliyə dəvət olunanların iğtişaşı**

Rostov - Bryanskda Şura ordusu ərkani-hərb [qərargah] rəislərindən birinin əmələ və səfərbərliyə dəvət olunanlar arasında müsəlləh [silahlı] iğtişaş təşkil etdiyinə dair məlumat alınmışdır. Bryansk şəhəri iğtişaşçılar tərəfindən işğal edilmiş və Şura hökuməti düşürülmüşdür. Böyləliklə Qırmızı qoşunlar bizim üçün ən lüzumlu cəbhədə, bizim qoşunlar və öz iğtişaşçıları arasında qalmışlardır.

**Baltik səvahili hökumətlərinin yeni konfransı**

Pskov - Estoniya hökuməti, Latviya və Litva hökumətlərini 9 noyabrda Yuryev şəhərinə yeni konfransa dəvət etmişdir. Bu konfrans Şura Rusiya ilə sülh konfransına döndəriləcəkdir.

**İsveç və Şura hökuməti**

İsveç hökuməti Şura hökumətinə müraciət edərək, Moskva və Petroqradda olan İsveç konsulxana və səfarətxanaları əmlak və odalarının həcz [müsadirə] edilməsinə protesto etmişdir.

**Denikin arxasında iğtişaş hərəkatı**

Qomel - Minskdən verilən xəbərlərə görə, Kondikleyevki dairəsində Denikin qoşunları on iki mindən ibarət iğtişaşçılarla vuruşmadadırlar. Qırmızı partizan dəstələri ilə birləşməkdən ötrü iğtişaş Yekaterinoslav tərəfə qədər intişar etməkdədir [yayılmaqdadır].

Melitopol qəzasında Şura hökuməti şüarıyla kəndçilər iğtişaşı baş vermişdir. Kəndçilər Denikinə taxıl verməkdən imtina edirlər.

**İnanmayırlar**

Qomel - Parisdən verilən məlumata görə, Müttəfiqlər siyasi dairələrində Denikin və Yudeniç müvəffəqiyyətinə inanmamaq gündən-günə kəsbi-qüvvə etməkdədir [qüvvətlənməkdədir]. Kolçakın məqhuriyyətini [məğlubiyyətini, əzilməsini] etiraf edirlər.

**"Tan" Yudeniç haqqında**

Fransa hökumətinin qəzetəsi "Tan" Yudeniç məqhuriyyətindən bəhs edərək yazır ki:

Göndərilən əslihələrin [silahların] bolşeviklər əlinə keçmək ehtimalından naşi [ötrü], Baltik səvahili [sahilləri] hökumətlərini əslihə ilə təchiz etmək xətrəlidir [təhlükəlidir].

Amerika qəzetələri İngiltərə hökumətinin Müttəfiq dövlətlərlə Şura Rusiya arasında olacaq şura məsələsini müzakirə etməyə mail olduğunu xəbər verirlər.

Cəmahiri-Müttəfiqə [Birləşmiş Ştatlar] Şura Rusiyanın ablukasına [blokadasına] iştirakından imtina etmiş və Petroqradı ərzaqla təchiz etmək xəyalındadır. İngiltərə Hərbiyyə naziri Məclisi-Məbusanda demişdir:

Ukraynada Denikin ordusu əleyhinə iğtişaş qalxmış və İngiltərə hərbi məmurlarının verdikləri xəbərlərə nəzərən, bolşevik dəstələri Xerson üzərinə yürüş etməkdədirlər.

Denikinin bir daha İngiltərə tərəfindən müavinət görmədiyini Çörçill təsdiq etmişdir.





*(Gürcü teleqraf acentəliyindən)*

**Klemansonun nitqi**

Bu günlərdə Strasburqda Klemanso böyük siyasi əhəmiyyəti haiz olan [daşıyan] bir nitq söyləyəcəkdir.

**İlhaq**

Pişonun təhti-sədarəti [başçılığı] altında olan Ali Şura ingilislərə Şərqi Prussiyada Allenştayn mahalını, italyanlara Qərbi Prussiyada Marienverder, fransızlara Yuxarı Sileziya və Teşin mahalının verilməsini qət etmişdir [qərara almışdır].

*(Qafqaziyadakı Müttəfiqlər heyətinin radio xəbərləri)*

**Sülh Konfransının təvizi [əvəzlənməsi]**

Parisdən xəbər verirlər ki, Müttəfiq hökumətlər Sülh Konfransını Pişon sədarəti altında Səfir konfransına təviz etmək projesinə baxmaqdadırlar.

**Almanlar Varşavada**

Varşavada 25 milyon sərmayə ilə bir Almaniya mal idxal və ixrac edən şirkəti təşkil edilmişdir.

**Almaniyalıların Riqadan təxliyə edilməsi**

Almaniya hökuməti Riqada olan Almaniya səfarəti [səfirliyi] və Almaniya qaçqınları müavinəti ilə almanların Riqadan Almaniyaya təxliyə edilməsinə mübaşirət etmişdir [başlamışdır].

**İtaliyada təşviqat**

İtaliya hökumətinin sadir etdiyi [verdiyi] əmrlə Xariciyyə Nəzarəti cənbindəki [nəzdindəki] Təşviqat və Təbliğat idarəsi ləğv edilir.

## QƏZETƏLƏRDƏN

**Hindustan muxtariyyəti**

Müharibədən daha irəli İngiltərə hökuməti qarşısında durmuş Hindustan muxtariyyəti məsələsi şimdi bir az da kəskin vəziyyət alıb, İngiltərənin müstəmləkə qəvanini [qanunları] içində büsbütün yeni bir qanun layihəsi icadına səbəbiyyət vermişdir. Velikobritaniyanın ayrı-ayrı hissələri olan Kanada, Avstraliya və Yeni Zelandiya kimi yerlərdə təşkilat məsələsində, demokratiya tarixində sınanmış federasyon əsasları nəzərietibara alınmışdırsa, fəqət Hindustanda əhalinin aşağı dərəcədə olan dövləti idrakını əsas ittixaz edərək [əsas qəbul edərək, əsas sayaraq], orada İngiltərə federasyon və bürokratizm üsullu bir şey vücuda gətirmək xəyalındadır. Ələlümum Hindustan layiheyi-qanuniyyəsi atidəki [aşağıdakı] qərar üzrədir:

Hindustan vis-kralı indində [nəzdində] bir qanunverici məclis (Məclisi-Məbusan) təşkil edilir. Məclisin 120 üzvündən 80-ni əhali tərəfindən üç sənə vaxta intixab ediləcəkdir [seçiləcəkdir].

Bundan əlavə, bir də Məclisi-Əyan, yaxud Bütün Hindustan Şurası təşkil edilib, 56 əzası [üzvü] olacaqdır ki, onun 24-ü əhali tərəfindən 5 sənə vaxta intixab ediləcəkdir. Məmurlar Məclisi-Məbusana üzv olmaq ixtiyarından məhrum edilirlər. Fəqət Məclisi-Əyanın

çox yarısı məmurlardan ibarət olacaqdır.

Məclisi-Məbusanın iştirakı olmadan ancaq Hindustan vis-kralının səvabdidi [razılığı] ilə bütün Hindustan üçün qanunlar verməyə Məclisi-Əyan səlahiyyətdar olacaqdır.

Bu surətlə əski zamanlardan bəri mütləqiyyət mahiyyəti daşıyan Hindustan hökuməti muxtariyyət idarəsinin müşkül üsullarına baxmayaraq, yenə ilərikі vəziyyətində qalmış kimi olur.

Hindustan mətbuatından iqtibasən “Tayms” qəzetəsində dərc edilmiş əxbarata [xəbərlərə] nəzərən, bu qanun layihəsi Hindustan əhalisi içində heç bir dürlü məsərrət iqaz edəmməmişdir [sevinc oyandıra bilməmişdir] və hətta Hindustanın mötədil millətpərvərləri də Hindustan mərkəzi hökuməti məsuliyyətinin artırılmasını ən müqtəzi [vacib] bir məsələ ədd [hesab] edirlər.

## Yəhudi dövləti

### Torpaq tənzimatı

Fələstin hökuməti rəisi Londra Darülfünunu [Universiteti] professoru Veysmanın sədarəti altında Yaffada – Fələstinin müvəqqət paytaxtında Fələstindən ötrü torpaq tənzimatı [islahatı] tərtib etmək üçün iclaslar başlanılmışdır. Tənzimatın əsasına başlanğıc olaraq vəz edilmişdir [qoyulmuşdur] ki, əmlaki-qeyri-mütəhərrikə [daşınmaz əmlak], ehtikar və alqı-satqıya xidmət edəcək bir vasitə olmamalıdır.

Torpaq, üzərində işləyən zəhmətkeşlərə verilməlidir.

Torpaq tənzimatı projesi təsərrüfat və iqtisadiyyat əhli-xibrələrindən [mütəxəssislərindən], məşhur alman professoru Otto Birinaum tərəfindən tərtib verilir.

### Türkiyənin əlaqəsi

İrəliki Türkiyə kabinələri kimi şimdiki yeni kabinə də Fələstində yəhudi dövləti təşkilinə, ümumiyyətlə, hüsn-təvəccöhlə baxırmış. Türkiyəni maraqlandıran Türkiyə borcunun bir hissəsinin Fələstin hökuməti tərəfindən əda edilməsi və mühacirət və iqtisadi əlaqələrin tənzim edilməsi məsələsi imiş. Sülh müahidənaməsi [sazişi] imzalandıqdan sonra Türkiyə ilə Fələstin arasında imtiyazat müqaviləsi qəti olaraq tərtib ediləcəkmiş.

* * *

### Cəmahiri-Müttəfiqədə avtomobilçilik

Amerika Statistik Bürosunun nəşr etdiyi məlumata görə, Cəmahiri-Müttəfiqədə [Birləşmiş Ştatlarda] avtomobilçiliyin tövsisi [genişlənməsi] atidəki [aşağıdakı] rəqəmlər üzrədir:

1911-ci sənə 677,000 avtomobil,
1912-ci sənə 1,010,488 avtomobil,
1913-cü sənə 1,253,875 avtomobil,
1914-cü sənə 1,711,339 avtomobil,
1915-ci sənə 2,445,664 avtomobil,
1916-cı sənə 3,512,996 avtomobil,
1917-ci sənə 4,983,340 avtomobil,
1918-ci sənə 5,945,442 avtomobil,
1919-cu sənə həziran [iyun] 6,353,233 avtomobil.

Böyləliklə, son səkkiz sənə zərfində Cəmahiri-Müttəfiqə avtomobilləri on qata qədər artmışdır. 105,186,167 nüfusu [əhalisi] olan Cəmahiri-Müttəfiqədə vəsət olaraq [orta hesabla] 19 adama bir avtomobil düşür. (Cümhuriyyətlərin birində isə 7 adama bir avtomobil düşür.) Avtomobil agentələrinin miqdarı 31 min olub, qarajlar da 30 mindir.

### Dəniz tankları

İngiltərə amiralı Fişer əzim [böyük] “dəniz hipopotomları”, başqa təbirlə [başqa ifadəylə] tank gəmiləri inşa etmək üçün bir proje hazırlamış imiş. Bu dəniz tanklarının inşa edilməməsinin səbəbi Britaniya hökumətinin müharibə zamanı bacarmadığından, yaxud onunla iştiğal etmək [məşğul olmaq] istəmədiyindən irəli gəlmişdir. Şimdi amiral Fişer bu projenin mövqeyi-icraya qonulması üçün yenidən məsələ qaldırmışdır.

### Kiyev-Paris

“Press büro”nun verdiyi xəbərlərə görə, Kiyev ilə Paris arasında təyyarə müxabiratı vəz ediləcək [rabitəsi yaradılacaq] və əvvəlinci teyri də [uçuşu da] təyyarəçi Fyodrov edəcəkdir.

## SÜLH ƏTRAFINDA

### Almaniya mətbuatı sülh haqqında

Berlin mətbuatı yazır ki, Müttəfiqlər sülh müahidənaməsində [sazişində] olan təzadı zahirən tədil etmək [mötədilləşdirmək, qaydaya salmaq] istəyirsə, fəqət o yol ilə getməyə meyl göstərməyirlər. Xəsarət təvizatının [kompensasiyanın] mümkün qədər tez zamanda tədiyə edilə [ödənə] bilməsi niyyəti ilə Almaniyaya müavinət etmək əvəzinə, onlar yeni təzyiqatlar icad edirlər. Sülh müahidənaməsinin imzalanması nə qədər uzaqlara təviq edilirsə [təxirə salınırsa], o qədər də ziyadəsi ilə “Müttəfiqin ricali-hökuməti [Müttəfiqlərin hökumət adamları] sülhdən qorxurlar” etiqadatı təqviyə bulur [güclənir]. Hərgah mütarikə şəraiti [atəşkəs şərtləri] məsun [toxunulmaz] olaraq saxlanırsa, o zaman hər dəqiqə çıxış bəkləmək olar. Bir daha inkar edilməyəcək müdhiş əmri-vaqeni [faktı] doğruca təsvir edən Fransa sosialistlərinin qarşıda duran intixabatdakı [seçkilərdəki] proqramlarıdır ki, ümumi tərki-silahın Almaniyadan başlanılmasını tələb edirlər. “L. A.” qəzetəsi yazır ki, Almaniyanı zəhmətsizcə əzmək üçün sülh və mütarikə müahidənamələrində “xüd’eyi-dolab” [hiylə, fırıldaq] vardır. Görünür ki, Paris Cəmiyyəti-Əqvam yaradanları, ümumi sülh tərki-silah və başqa gözəl işlər xəlq edənləri Almaniya dövləti həyatına əngəl törətmək üçün yalnızca vasitə hərbi tədabirdə [tədbirlərdə] görürlər.

### Almaniyadan 140 min inək

Müttəfiqlərin Almaniyadan 140 min inək verilməsi tələbatına qarşı Londrada edilən protestonu Londra İstixbarat [Məlumat] Bürosundan iqtibasən Almaniya mətbuatı nəşr etmişdir. Protesto lord Robert Sesil, lord Landsdaun, Kenterberi arxiyepiskopları, Hersoginya Vedkord, Serbelli, Artur Henderson və bir çox qeyri məşhur camaat xadimləri tərəfindən imza edilmişdir. Protesto sülh müahidənaməsinə təshihat yapan [düzəlişlər edən] Paris komisyonuna göndərilmişdir.

Protestonamədə İngiltərə “Bəyaz kitab”ından Almaniyada məkulat [ərzaq]

bahalığını və südsüzlükdən çocuqların dəhşətli əziyyətlərə məruz qaldığını göstərən parçalar da iqtibas edilərək iraə [təqdim] edilmişdir.

Protestoda denilir ki, bütün cahani-mədəniyyət müharibə saiqəsi [səbəbi] ilə vücuda gəlmiş məhrumiyyətlərdən dolayı artmada olan çocuq ölümünə mümaniət etməyə [mane olmağa] borcludur. Tə'kidən rica olunur ki, tələb olunan inəkləri başqa məmləkətlərdən alıb Fransa və Belçikaya vermək üçün Almaniyaya izin verilsin.

60 min inək Amerikada alınaraq Fransaya verilmişdir.

**Helholand adası**

Helholand əhalisi Sülh Konfransına müraciət edərək istida [xahiş] etmişdir ki, Helholand adasının müqəddəratını həll etməkdən ötrü rəyi-amma [referenduma] müraciət olunsun.

## CÜMƏ GÜNKÜ MÜXTƏLİF XƏBƏRLƏR

**Belçika kralı Amerikada**

Belçika kralı xitabnamə ilə Amerika əhalisinə müraciət edərək, Amerikaya vürudu [gəlişi] və Amerika şəhərlərini ziyarət etməsi həsəbi [səbəbi] ilə izhari-şadmani edir [şad olduğunu bildirir] və deyir ki:

*"Amerika şəhərləri əhalisinin qəlbləri Belçika şəhərləri əhalisi qəlbləri ilə həmahəng olaraq çarpmış və Amerika əhalisi Belçika yolunda tədadsız [saysız] fədakarlıqlarda bulunmuşlardır."*

**İngiltərədə tətil**

İngiltərə dəmiryollarında tətil hərəkatı sakitləşir. Mindel xətti və Londra ilə Liverpul, Mançester və Bristol aralarındakı yollarda işlərə mübaşirət edilmişdir [başlanmışdır].

**Fransada mühasireyi-əsgəriyyə idarəsinin ilğası**

Fransa rəisi-cümhuru [prezidenti] dekret verərək Balfur və Əlcəzair mülhəqatında [ilhaq edilmiş ərazilərində] mühasireyi-əsgəriyyə [hərbi mühasirə] idarəsini ləğv etmişdir.

**General Quro Suriyada**

General Quro kəndisinin Suriyada olacaq fəaliyyəti proqramı haqqında bərvəchi-ati bəyani-əfkar etmişdir [aşağıdakı kimi fikir bildirmişdir]:

*"Mənim fəaliyyətim başlıca olaraq hərbi bir mahiyyət daşıyacaq və ən əvvəl Fransa-İngiltərə etilafı mövcibincə [razılaşmasına əsasən] müəyyən edilmiş Suriyanın bəzi yerlərində ingilis əsakirini [əsgərlərini] Fransa qoşunları ilə dəyişəcəyəm."*

General Quro əlavə olaraq bəyan etmişdir ki, o, ingilis məmurları ilə münasibati-dostanənin davamını mühafizə ilə mütəqabil etimada məzhər olan [qarşılıqlı etimada nail olan] bir siyasət təqib edəcəkdir.

**İtaliyada məcburi istiqraz**

İtaliya hökuməti bir faizli daxili məcburi istiqraz üçün proje tərtib edir. 20 min frankdan ziyadə sərmayəyə malik olanların həpsi istiqrazda iştirak etməyə məcbur ediləcəkdirlər. İstiqraz 70 sənə





müddətində tədiyə ediləcəkdir [ödənəcəkdir].

**Gürcüstan mürəxxəsləri**

Roma - Gürcüstan Cümhuriyyəti mürəxxəsləri [nümayəndələri] rəisini Nitti qəbul edərək iki mühüm məsələ barəsində müsahibədə bulunmuşdur. Ən əvvəl Gürcüstan mürəxxəsləri rəisi rica etmişdir ki, Parisdə olan İtaliya sülh mürəxxəsləri cavan Gürcüstan Cümhuriyyəti istiqlalının təsdiqini müdafiə etsinlər. İkinci olaraq, müsahibə əsnasında Gürcüstan ilə İtaliya arasında əlaqələr müzakirə edilmişdir.

**İtaliyada səhmdaran cəmiyyəti**

Roma - Son statistiklərin topladığı məlumata görə, İtaliyada 11,786,905,381 lirə sərmayəyə malik 4,414 səhmdarlar cəmiyyəti vardır.

**Denikin qərargahında**

Bu yaxın günlərdə Cənubi Rusiya qüvayi-müsəlləhəsi [silahlı qüvvələri] baş komandanı qərargahına Baş komandanlıq nəzdində olan İngiltərə hərbi [qərargahı] sabiq rəisi general Briqqs və Fransa hərbi heyəti başda general Manjen olaraq vürud edəcəklərdir [gələcəklər]. Fransa hərbi heyətində 100-ə qədər zabit vardır.

**"Pravda" qəzetəsi Zaqafqaziya haqqında**

Moskvada nəşr olunan "Pravda" və "İzvestiya Tsentkoma" qəzetələrinin eylül [sentyabr] və ağustos nömrələrində Qafqaziya cümhuriyyətləri haqqında bir çox məqalələr dərc edilmişdir. Əzcümlə [o cümlədən] "Pravda" qəzetəsi bir baş məqaləsində Xalq Komissarları Şurasını tövbix [məzəmmət] edərək yazır ki, "Sovnarkom" [Xalq Komissarları Soveti] Qafqaziya millətlərinin haqlı müddəalarını kəndi vaxtında qarşılamadı. Zaqafqaziyada keçən sənə təməlli arxamız olduğu halda, müttəfiqimiz Bakı və Tiflisdə sağlam bir üssül-hərəkə [baza] təşkilinə çalışmış olsaydıq, Şimali Qafqaziyanı da qeyb etməzdik və al bayrağımız Pyatiqorsk və Vladiqafqazda şimdi də ehtizaz etmiş [dalğalanmış] olardı.

Məqalənin axırında xülasə olaraq mühərrir dəvət edir ki, şimdiki beynəlmiləlçilər nəzərlərini Şərqə doğru dikmişlər, lazımdır ki, inqilab nəzakətini bütün kamalı ilə izhar edərək, ağqvardiyaçılara bizimlə birlikdə ümumi bir nifrət hissi bəsləyən Qafqaziya hökumətlərinə əlimizi uzadalım.

*("Z. T.")*

**İngiltərə səfirləri**

İngiltərə hökuməti tərəfindən yeni cümhuriyyətlərə atidə əsamisi mühərrər [aşağıda adları yazılan] səfirlər təyin edilmişlərdir:

Çex-Slovakiya Cümhuriyyətinə – Corc Klerk;

Finlandiyaya – Lord Akton;

Serb-Xorvat krallığına – A. Yanq;

Lehistana [Polşaya] – H. Rambold;

Şvedə [İsveçə] – Kolvill Barkli.

**Yudeniçə müavinət**

"V. V." qəzetəsinin verdiyi məlumata nəzərən, şimal-qərbdə əməliyyatda bulunan Könüllü ordu üçün Müttəfiqlər tərəfindən 20 top, 22 min tüfəng, 15

milyon fişəng və bir çox başqa mühimmati-hərbiyyə göndərilmişdir.

**Denikin – darülfünun fəxri üzvi**

"V. V." qəzetəsi xəbər verir ki, Denikin Kiyev Darülfünununa [Universitetinə] fəxri üzv intixab edilmişdir [seçilmişdir].

**General fon der Qoltsun məktubu**

"V. V."-nin əxbaratına [xəbərlərinə] görə, "Ditşe çaytunq" qəzetəsi general [Rüdiger] fon der Qoltsun, Riqada olan Müttəfiqin müməssilinin [Müttəfiq dövlətlər nümayəndəsinin] tələbnaməsinə verdiyi cavabı dərc etmişdir. Müməssil icbari qərardadı pozan alman əsgərlərini tələb edirmiş. İştə verilən cavab:

*"10 eylül [sentyabr] tarixli məktubunuza cavab olaraq mən bu məsələ barəsində hər bir müzakiratı rədd edirəm. Siz məktubunuzda mənim vətəndaşlarımı məndən tələb etmək cəsarətində bulunmuşsunuz. Mən bunu kəndi şəxsiyyətim və alman milləti üçün təhqir ədd [hesab] edirəm. Mən sizə tövsiyə edirəm ki, mənə və mənim təhtiməmuriyyətimdə [əmrim altında] bulunanlara yazmayasınız. Mən sizinlə hər bir əlaqəni kəsməyə və alman əsgərləri işğal etdiyi yerlərdən ingilisləri təbid etməyə [qovmağa] məcbur olaram. Zira alman milləti hisslərini təhqir edən Müttəfiqin müməssillərinin səlamətliyi şübhə altındadır. Mən bu məktubu hökumətimə verərəm, o da qəti cavab verər.*

*General fon der Qolts"*

**Cənubi Rusiya konfransı**

Cənubi Rusiya Konfransında Xarlamov söyləmişdir ki:

*"Konfransın işləri "Böyük Vahid Rusiya" təşkil etmək istiqamətində gedir. Bizim Donda hökumət təşkil etməmiz ümumi Rusiya hökuməti işlərinə mümaniət [maneçilik] etməyir. Don Rusiya ilə müttəhid [birgə] olaraq yaşamalıdır. Ümumi Rusiya mədəniyyəti ilə mərbut [bağlı] olmamız bizim işlərimizə icrayitəsir edir və biz irəliki halımızı qüdsiyyətlə siyanət ediriz [qoruyuruq]."*

Don atamanı general Boqayevski və Don ordusu komandanı general Sidorin kəndi nitqlərində qeyd etmişlər ki, Don yalnız kəndisini deyil, ümumi Rusiyanı da sahili-səlamətə çıxarmalıdır.

Boqayevski "Böyük Vahid Rusiya"nı (teleqraf buraxılmış) bərpa etmək sözləri ilə nitqinə xitam vermişdir.

Cənubi Rusiya qüvayi-müsəlləhəsi [silahlı qüvvələri] baş komandanı nümayəndəsi və İngiltərə heyəti üzvü konfrans tərəfindən şiddətli alqışlarla istiqbal edilmişlərdir [qarşılanmışlar].

**Petlyuraya qarşı hücum**

Nikolayev radio mövqifinin [radiostansiyasının] Odessadan verdiyi əxbarata [xəbərlərə] nəzərən, təşrini-əvvəlin [oktyabrın] 15-dən etibarən Qalitsın istiqamətində Petlyuraya qarşı əməliyyatda bulunan general Slaşev qoşunları təşrini-əvvəlin 19-da əməliyyatlarını bitirmiş və Petlyura tərəfindən Odessa cəbhəsini yarmaq üçün toplanmış Volın fədai dəstələrini münhəzim [məğlub] və pərişan etmişdir.

Fasiləsiz yağmurlarıyla xəzanın soyuq günləri köy arası yolların çıxılmaz çamırları və yağmur saiqəsi [səbəbi] ilə Buq nəhrinin daşması qoşun hərəkəti üçün pək müşkülat vücuda gətirmişdir. Bu əməliyyatda könüllülər minə qədər əsir almış, əsirlər içində Petliyura Volın əsgərləri ərkani-hərbinin zabitanı da [hərbi qərargahının zabitləri də] vardır və əlavə 7 top, 48 mitralyoz, 1 zirehli tren [qatar], iki min avtomobil, bir çox parovoz və qeyri mühümmati-hərbiyyə zəbt və qənimət edilmişdir.





## TÜRKİYƏDƏ

**Azərbaycan siyasi nümayəndəsi Xariciyyə naziri hüzurunda**

"İləri" qəzetəsinin 29 təşrini-əvvəl [oktyabr] nömrəsində oxuduq:

"Azərbaycanın Dərsəadət müməssili [nümayəndəsi] Yusif bəy Vəzirov rəfaqətində [yanında] baş katibi Osman bəy olduğu halda dün bədəzzöhr [günortadan sonra] surəti-xüsusiyyədə Xariciyyədə Xariciyyə naziri Mustafa Rəşid paşanı ziyarət eyləmişdir."

**İstanbulda Lehistan səfiri**

Yenə məzkur qəzetədə işar olunur ki, Lehistan [Polşa] səfiri Xariciyyə naziri həzrətlərini ziyarətlə kəndi etimadnaməsi surətini tövdi [təqdim] etmişdir.

**Ərəblərin türklərlə əlaqəsi**

"İqdam" qəzetəsinin 30 təşrini-əvvəldən [oktyabrdan] verdiyi xəbərə görə, Mədinə, Məkkə və Ciddədə təvəttün etmiş [yurd salmış] türklər ərəblər tərəfindən məmləkətdən çıxarılırlar. Çıxarılmışlardan 600 nəfəri İstanbula səfil bir surətdə varid olmuşdurlar [gəlib çatmışlar]. Bunların miyanında [arasında] məzkur [deyilən] yerlərdə təvəllüd tapmış [doğulmuş], ölkələrindən nə üçün çıxarıldıqlarını bilməyənlərin miqdarı çoxdur.

**Hindustandakı türk əsirləri**

"İqdam" qəzetəsinin məlumatına görə, Hindustanın Mədrəs vilayətinin Bellari qərargahında 5,000 və Meiktila, Sumerpur və Birmaniya qərargahlarında 10,000 qədər türk əsirləri qalmışdır. Oradan varid olmuş [gəlmiş] əsirlər ingilislərin əlaqələrindən [göstərdikləri münasibətdən] məmnun olduqlarını söyləmişdirlər.

**Camal paşa**

"İqdam" qəzetəsinin 30 təşrini-əvvəl nömrəsində Hərbiyyə naziri [Mərsinli Məhməd] Camal paşanın istefa verəcəyi şayiatı təkzib edilir.

**İzmirdə yunanlar nə yapırlar?**

"İqdam" qəzetəsinin məlumatına məbni [əsasən], İzmirdə yunan hökuməti "Şərq" qəzetəsi sahibi-imtiyazı Xəlil Zəki və mühərriri Yunis bəyi birər sənə məhkum edərək Pireyə təbid [sürgün] etmişdir.

**Ərzurumda darüleytam**

Ərzurum İmdadi-sihhi heyəti tərəfindən Bayəziddə mükəmməl bir darüleytam güşadını [yetimxana açılmasını] "İqdam" qəzetəsi xəbər verir. Orada olan Qafqaziya mühacirinə də mümkün mərtəbə müavinəti-maddiyyə və sihhiyyə olunmasını heyət üzərinə götürmüşdür.

**BƏLƏDİYYƏ VƏKİLLƏRİ SEÇKİSİ BƏLƏDİYYƏ MƏCLİSİNDƏN NƏ GÖZLƏYİRİZ?**

**- 2 -**

Şəhər azərbaycanlılar əlinə keçdi. Bələdiyyə İdarəsinin fəaliyyətinə ehtiyac və lüzum hiss edildi. Yarı-yarımçıq, haqq-batil, xülasə, yaxşı-yaman bir Bələdiyyə Məclisi təşkil edildi. O zamandan tam bir il keçmişdir. Baxalım, vəkil əfəndilər nə yapdılar?

Doqquz ay konkasız qaldıqdan sonra həmişə Bələdiyyə İdarəsi tərəfindən işlədilərək şəhər üçün görkəmli bir mədaxil mənbəyi olan konka icarəyə verildi.

Bakıda alış-veriş bu vaxtadək görülməmiş bir dərəcəyə qədər yüksəldiyi halda, "ticarət polisi" adı ilə məruf olan [tanınan] müəssisə təcdid edilmədi [yenilənmədi]. Bunun nəticəsi olaraq bazar alış-verişi üstündən Bələdiyyə Məclisinin gözü çəkildi və gözətçisiz qalmış bazarçılar əhaliyə bildiklərini etdilər. Nə malın ucuz-bahalığına baxan oldu, nə şəhərin idxalat və ticarətinə göz yetirən bulundu, nə də ki bunca alış-verişdən şəhər daxılına bir məbləğ vüsul oldu.

Bu vaxtadək tramvayın özü olmazsa da, adı və layihəsi vardı; şimdi tramvay məsələsi unuduldu. Fəqir camaat şəhərin bu başından o başına fayton ilə getdikdə, çörəkpulu qalmadı; "qənaət" edib biyan (piyada) getdikdə, gündə 50 manat ayaqqabıdan geri düşdü.

Təmirat işləri bilmərrə durduruldu. Mənzil kirayəsi ayda bir-iki, hətta üç min manata qalxdı. Amma Bələdiyyə Məclisi "mənzil vergisi" adı ilə tanınmış və yaxşıca bir mədaxil təşkil edən vergidən hələ ki bir şey almayır. Bədihidir [aydındır] ki, bunun nəticəsində həmişə Bələdiyyə daxılı boş qalıb, xidmətçilərinin maaşını verməyə belə pul tapmadı və gündə bir dəfə hökumətin qapısına yüyürərək "Maaş verməyə pul yoxdur, filan qədər milyon borc ver" deyə onlarca milyon hökumətə borclu düşdü. İndi də 50 milyon manatlıq daxili istiqraz buraxır.

Yeri gəlmişkən, bunu da ərz etməliyəm ki, Bələdiyyə İdarəsində hər şöbədə bir çox lüzumsuz qulluqçular olduğunu şöbə müdirləri özləri də etiraf edirlər. Bələdiyyə İdarəsi borc alıb bunları doyurmaqdan başqa bir iş görmədi.

Əvət, görmədi!

Çünki şəhərin mərkəzi bir qədər təmiz və abad isə də, baxınız kənar küçələr, aşağı sinifə mənsub əhalinin yaşadığı məhəllələr nə haldadır:

Küçələrin əksəri təfriş edilməmişdir [döşənməmişdir]. Təfriş edilmiş küçələrin bəzi yerləri sökülmüş, uçmuş və neçə aylardan bəri təmir edilməyir. Bu küçələrdə bir dənə əməlli-başlı tratuar yoxdur.

Tratuarın eni iki qarış, o da hər qədəmdə çala-çuxur, mastavoy [nəqliyyat vasitələrinin hərəkət yolu] ilə getmək tratuardan min dəfə "rahat". Allah qismət eyləsin, qlasnı əfəndilər üç gecə böylə küçə ilə getsinlər, bəlkə görələr ki, qaranlıqda çala-çuxur küçələrlə gedənlər nələr çəkirlər.

Məktəblər isə "demokrat" Duma quruluşundan bəri ağlar bir hala gəlmişdir. Məktəblərin halını təsvir üçün burası kifayət edər ki, şəhər məktəblərinin təcrübəli müəllimlərindən ancaq 100-də





5 nəfəri xidmətdə qalıb, mabaqi [qalan] 95-i xidməti tərk etmişdir.

Nəhayət, baxınız ərzaq işləri nə oldu:

Ölkənin dair vaxtı heç bir aclıq, qəhətlik və sairə təhdidi olmayan zaman adətən Bələdiyyə İdarəsi öz mövsümündə, bir neçə ay şəhərin bütün ehtiyacatını ödəyəcək miqdarda buğda və un alıb yığardı ki, şayəd birdən bir iş oldu, şəhərə taxıl az gəldi, yainki heç də gəlmədi, o zaman əhali şəhər anbarlarının mövcudu ilə dolansın.

Şimdi isə nə görürüz:

Şəhər İdarəsi camaatın can məsələsi və özünün başlıca vəzifələrindən olan ərzaq məsələsini yavaş-yavaş üstündən atıb, əhalinin bunca mühüm bir ehtiyacını qeyri-məsul və xalqın heç də tanımadığı Sentrodoma mühəvvəl etdi [tapşırdı].

Bu gün Lənkəran və Muğan taxılını möhtəkirlər 80-100 manata alıb, İranda 600 və Bakının özündə 300-350 manata satır. Şəhərin fəqir-füqərası gözlərinin yaşı axa-axa çörəyin girvənkəsinə 8 manat verir. Amma Bələdiyyə vəkilləri yerlərində rahat oturub laqeyd baxırlar.

Bunların həpsi ilə bərabər bələdiyyə idarələrində yenə məhəlli [yerli] dillər, camaatın öz dili qeyri-məşru [qeyri-qanuni] bir şey halında buraxılaraq, nə dövlətin rəsmi dili qəbul edilərək qullanmasına müsaidə edilmişdir, nə də Bələdiyyə İdarəsində işi olan demokratiyaya [xalqa] izin verilmişdir türk, erməni, gürcü və sairə dilini istemal etsin [işlətsin]; dil həman rus dili qalmışdır.

Böyük-xırda hankı məsələyə baxsanız görərsiniz ki, Azərbaycan şəhərlərinin ümumən, Bakının xüsusən halı əsla yaxşılaşdırılmamış, demokratlaşdırılmamışdır. Demokratlıq ancaq uzun, biməna, quru nitqlərdən ibarət olmuşdur.

Küçələrə baxınız: "İmperator Nikolay küçəsi", "İmperator 2-nci Aleksandr naberejnisi", "Pyotr Veliki meydanı", "Romanov caddəsi", "Vorontsov", "General Vrangel", "General Sisianov" və sairə küçələri... ilaxır...

İstiqlal bayramı münasibətilə Bakı Duması "Nikolayevski" küçəni "Parlaman küçəsi" adlandırmağı təhti-qərara aldı, fəqət sevgili Nikolaydan ayrıla bilmədi. Qərar ağ kağız üzərində qaldı.

Burayadək yazdıqlarımız yalnız Bakıya aid olmayıb, Azərbaycanın bütün şəhərləri də eyni haldadırlar. Bütün ömründə, hətta keçənilki anarşi dövründə 90 manatdan artığa taxıl almamış olan şuşalılar şimdi 300 manat eşitdikdə gözlərinin yaşı axır. Barı pul da tapmayırlar, pudu 300 manata taxıl alsınlar. Lənkərandan hər kəs gəlsə, ağlayır ki, un gündə 20-25 manat tərəqqi edir [qalxır], müqabilinə bir çarə edən yoxdur. Qazax camaatı gözünün yaşını tökür ki, heç səbəb olmadığı halda bahalıq gündən-günə artır.

İşıq məsələsi, küçələrin bərbadlığı, birər məzbələ [zibillik] halında olduqları, maarif işləri və sairə isə qeyri-qabili-təsvir bir haldadır.

Yazıq camaat ağlayır və ancaq hökuməti müqəssir görür. Daha bilməyir ki, bu işlər həp bələdiyyə məclislərinin vəzifəsi, bu nöqsanlardan həp bələdiyyə vəkilləri məsuldurlar.

Bələdiyyə vəkillərinin böylə fəaliyyətsizliyi bir tərəfdən zavallı vətəndaşların əhvalının fənalaşmasına bais olur, digər

tərəfdən də hökuməti camaatın nəzərindən salır.

İştə, köhnə bələdiyyə məclisləri və bələdiyyə vəkillərinin "fəaliyyəti" və fəaliyyətsizliklərinin nətayici [nəticələri].

Şimdi yeni intixab ediləcək [seçiləcək] bələdiyyə vəkilləri nə etməlidirlər?

Bu suala üçüncü məqalədə cavab verərik.

*Xəlil İbrahim*

**VÜKƏLA ŞURASINDA**
**[NAZİRLƏR KABİNETİNDƏ]**

Türuq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin Bakı-Culfa dəmiryolu Kür nəhri üzərindən körpü çəkən fəhlələrə ərzaq buraxılması haqqındakı təqriri isteması [rəsmi müraciətinin dinlənməsi] nəticəsində, Ticarət Nəzarətinə, orada çalışan fəhlələrə Novo-Bayəzid qəzasına bərvəchi-ati [aşağıda göstərilən] ərzaq aparılmasına icazə verilmənin tapşırılması qərara alınmışdır: buğda 300 pud, arpa 1000 pud, düyü 400 pud, darı 300 pud.

* * *

Xariciyyə nazirinin, Ermənistandakı siyasi nümayəndəlik üçün ərzaq buraxılması haqqındakı təqriri isteması nəticəsində, Ermənistandakı nümayəndəliyə gömrüksüz işbu ərzağın aparılmasına icazə vermək qərara alınmışdır: 1) un 100 pud; 2) düyü 30 pud; 3) şəkər 10 pud və: 4) 20 top bəzzaziyyə malı.

* * *

Daxiliyyə nazirinin Nəzarət evi təmiratı üçün 91,665 manat 60 qəpik buraxılması haqqındakı təqriri isteması nəticəsində istənilən məbləğ[in] 70 milyonluq fonddan buraxılması qərara alınmışdır.

* * *

Hərbiyyə nazirinin bayraq layihəsi haqqındakı təqriri isteması nəticəsində, Hərbiyyə Nəzarəti tərəfindən piyada alayları, başqa-başqa taborlar, süvari alayları və hərbiyyə məktəbi bayrağı layihələri təsdiq edilsin.

* * *

Səhhəti-Ümumiyyə nazirinin köy tibbiyyəsi şöbəsi müdirinin təsdiqi haqqındakı təqriri isteması nəticəsində, qradonaçalstva həkimi Firuz bəy Ordubadskinin həman vəzifədə təsdiqi qərara alınmışdır.

* * *

Daxiliyyə nazirinin Qazax qəzası dairəsində sərhəddarlar saxlamaq üçün məbləğ təxsisi [ayrılması] haqqındakı təqriri isteması nəticəsində, 70 milyonluq fonddan Daxiliyyə Nəzarətinə sərhəddarlar məxaricatı üçün 308,100 manat buraxılması qərara alınmışdır. Fəqət Maliyyə Nəzarəti işbu sənənin axırından əvvəl Qazax qəzasında sərhəddarlar təşkilinə müvəffəq olarsa, istiqrazın qalmış hissəsi Maliyyə Nəzarətinə verilməlidir.

* * *

Posta və Teleqraf nazirinin Bakı sahili radio mövqifi məxaricatından ötrü ... manat təxsisi haqqındakı təqriri isteması nəticəsində, istənilən məbləğin 70 milyonluq fonddan buraxılması qərara alınmışdır.

* * *

Posta və Teleqraf nazirinin teleqraf emalatxanası məxaricatından ötrü məbləğ təxsisi haqqındakı təqriri isteması nəticəsində, 70 milyonluq fonddan





Nəzarətə 100 min manat buraxılması qərara alınmışdır.

* * *

Maarif nazirinin Azərbaycana gətiriləcək mətbuat və kitablardan gömrük alınmaması haqqındakı təqriri isteması nəticəsində, gömrük alınmasının durdurulması və Maarif Nəzarətinə, Məclisi-Məbusana xüsusi qanun layihəsi təqdiminin tapşırılması qərara alınmışdır.

* * *

Daxiliyyə nazirinin dəftərxana müdirlərinin əzli haqqındakı təqriri isteması nəticəsində, Daxiliyyə Nəzarəti dəftərxanası müdiri Tolibkanın ərizəsinə məbni əzl edilməsi [ərizəsinə əsasən işdən azad edilməsi] qərara alınmışdır.

* * *

Daxiliyyə nazirinin uryadnik Kərim Məhəmməd[ovun] ailəsinə maaş təyini haqqındakı təqriri isteması nəticəsində, Daxiliyyə Nəzarətinə, vəzifəsi ifası əsnasında qətl edilmiş uryadnik Kərim Məhəmmədovun ailəsinə birdəfəlik 8,400 manat verilməsinin tapşırılması qərara alınmışdır.

**NƏZARƏTLƏRDƏ**
**[NAZİRLİKLƏRDƏ]**

Ticarət və Sənaye Nəzarəti Daxiliyyə Nəzarətinə "Kooperasiya" Cəmiyyətinin odunla dolu gəminin həczdən azad edilməsi haqqındakı təşəbbüsatını göndərmişdir.

* * *

Daxiliyyə Nəzarətinə, Ərazi Nəzarəti vasitəsilə Şəki qəzasının bir taqım mülkədarları tərəfindən 1917-ci sənədə silah zoru ilə alınan "yarumal" torpaqlarının qaytarılması haqqında təşəbbüsat daxil olmuşdur.

* * *

Məsai [Əmək] Nəzarəti cənbindəki [nəzdində] Statistika və bazar şöbəsi Azərbaycan Cümhuriyyəti fəhlə və mədənləri haqqında məlumat yığmağa başlamışdır.

* * *

Gəncə qubernatoru Daxiliyyə Nəzarətinə müraciətən rica etmişdir ki, Qarabağ və Qazax qəzalarının işlərini xüsusi general-qubernatorluq olduğu üçün onun öhdəsindən götürmək haqqında lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

**BAKI XƏBƏRLƏRİ**

**Bələdiyyə İdarəsində**

Azərbaycan Cümhuriyyəti para və qiymətli kağızlar hazırlayan mətbəəsi Bələdiyyə İdarəsinin 150 min manata 100 min kağız hazırlamaq təklifini qəbul etməsi haqqında kəndi rəyini vermişdi.

Bələdiyyə rəisinin mətbəə sahibi ilə olan müsahibəsindən məlum olmuşdur ki, biletlər dörd rəng deyil, beş rəngdə çıxacaqdır. Binaənileyh [ona görə], ümumi etilaf [razılaşma] nəticəsində Bələdiyyə İdarəsi 25 min manat da əlavə edərək, 175 min manat etmişdir. Bələdiyyə İdarəsi mətbəəyə xəbər vermişdir ki, artıq bundan sonra Bələdiyyə İdarəsi heç bir məsarifatı öz öhdəsinə götürməyəcəkdir.

**Bələdiyyə İdarəsinin yeni məxaricatı**

Bələdiyyə İdarəsi Daxiliyyə Nəzarətinə bir təliqə [rəsmi məktub] göndərib məlum etmişdir ki, şəhər idarəsinin maliyyə cəhətinin fənalığı və bu gün mədaxil yollarının bitməsi, digər tərəfdən bir çox yeni məxariclərin görünməsi şəhər idarəsini ciddi bir vəziyyətdə buraxmışdır.

Hal-hazırda şəhər idarəsinin yeni məxaricatı işbu qərar üzrədir:

1) Bələdiyyə Məclisi intixabatı [seçkiləri] – 1,000,000 manat;

2) Aparışlı istiqraz buraxılması məxaricatı – 1,000,000;

3) Təşrini-saninin 1-dən etibarən xidmətçilər məvaciblərinin artırılması – ki, şəhər xidmətçilərinin məvacibləri dövləti xidmətçilər məvacibləri ilə müsavilәşdiriləcəkdir – 1,500,000 manatdan fəzlə.

Əlavə, Bələdiyyə İdarəsi pud vergisi almaq ehtimalında idi ki, bunun da təsdiqi uzun müddət qövldən feilə gəlmədiyindən [gerçəkləşmədiyindən], işbu sənə də şəhər kassasına az mədaxil verəcəkdir.

Böyləliklə, şəhər smetasındakı məxaricat bir qədər də təzayüd etmiş [artmış] olur.

Bələdiyyə İdarəsi rica etmişdir ki, bunları nəzərə alaraq Vükəla Şurası nəzdində 15,000,000 manat istiqraz haqqında iqdamatda bulunulsun [addımlar atılsın] və bu məbləğ şəhər istiqrazından saxlanılsın.

Bələdiyyə İdarəsi kəndi müraciətnaməsinin sonunda işbu məbləğin faizsiz [verilməsini] və bu vaxtadək verilmiş istiqrazın da faizdən azad edilməsini rica etmişdir.

**Qanunların nəşri**

Dünkü gün "Azərbaycan Cümhuriyyəti hökumətinin əxbarı" qəzetəsinin 18-ci nömrəsi çıxmışdır. Qəzetədə Hökumət Müdafiəsi Komitəsinin və Vükəla Şurasının işbu qərardadları – Azərbaycan Cümhuriyyəti Məclisi-Müəssisanı intixabatı [Təsisçilər Məclisi seçkiləri] haqqındakı qəvanin [qanunlar]; Bakı Dövlət Darülfünunu qanunnaməsi; Azərbaycan hökumət əmanət sandıqları qanunnaməsi; Azərbaycan dəmiryollarının tarifəsinin təbdili [dəyişdirilməsi] haqqında qanunnaməsi və Hüquq davalarının üsuli-iqamə və təhrikində [məhkəmə işlərinin açılması və icrasında] bəzi fəsillərinin tağyir və təbdili [dəyişdirilməsi və düzəldilməsi] haqqında qanunnamənin Parlaman tərəfindən qəbul edildiyi dərc edilmişdir.

Bunlardan başqa, həmin 18-ci nömrədə Səhhəti-Ümumiyyə Nəzarətinin, çovdar malından alınan vergi faizinin norması, Parlaman sədri və başqa vükəlanın [nazirlərin] əmrləri və Ədliyyənin və bəzi nəzarətlərin [nazirliklərin] elanları dərc edilmişdir.

**Tələbə və mütəallimlər iclası**

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinə üzv olan və hüsn-rəğbət göstərən türk tələbə, talibə [tələbə qız] və mütəallimlərindən [şagirdlərindən] rica olunur ki, bazar günü, noyabrın 9-da saat 5 tamamda "Müsavat"ın Haşımovun mülkündə olan (Raboçi klub qarşısında) bürosuna ümumi iclasa təşrif gətirsinlər.

İclasda Duma, Məclisi-Müəssisan və firqə qurultayına olacaq seçkilərə və bir





çox bu kimi mühüm məsələlərə baxılacaqdır.

**Tovuz istasyonunda**

Qazax mahalının general-qubernatoru Qazaxdan Daxiliyyə Nəzarətinə böylə bir teleqraf göndərmişdir:

*"Təşrini-saninin 5-də göndərdiyim teleqrafa əlavə olaraq məlum edirəm ki, təşrini-saninin 4-də qarət edilmiş olan ermənilərin qalan əşyası da bulunub, müstəntiq vasitəsilə sahiblərinə verilmişdir. Mütəzərrirlərin [zərərçəkənlərin] hamısı bu gün Tiflisə azim olmuşlardır [yola düşmüşlər].*

*General-qubernator*
*[Əmir xan] Xoyski"*

**Teatro və konsert**

Bu gün təşrini-saninin 9-da Fəhlə klubunun binasında başqırd xanəndəsi gənc Əziz əfəndi Əhmədov tərəfindən konsert verilərək, bir məclis və iki şəkildə yazılmış Ələsgər Kamalın "Qayınana" nam əsəri mövqeyi-tamaşaya qoyulacaqdır.

Konsertdə Əziz əfəndi Əhmədov ənvai [cürbəcür] başqırd və tatar nəğmələri oxuyacaqdır.

**Bir xəbər yoxdur**

19 sinnində olan Georgi Milki-Sedikoviç Doburckanidze (Çanaxidze) 1918-ci sənə[də] İranda Qəzvin şəhərində hərbi posta-teleqraf idarəsində xidmət edirdi. 1918-ci sənə eylülün 20-də türklər tərəfindən edilən mühacimədə [hücumda] məzkur [adı çəkilən şəxs] əsir düşmüşdür. O tarixdən indiyə qədər bundan bir xəbər yoxdur. Hər kəs bu gəncin nərədə olmasını bilirsə, Kutais şəhərində Tiflisski küçədə Çikuraninin evində Stepan və Olqa Pirtsxakaşviliyə xəbər verməlәri mətlubdur [arzu olunur].

**Könüllü Təşkilatında**

Cümə günü, bu ayın 7-ci günündə xarici-şəhərdə [şəhər kənarında] təşkilat təlimgahında əndaxt [atış] təlimində 20 kişi iştirak etmiş olmaqla, ikişər fişəng əndaxt etmək üzrə əsamiləri [adları] aşağıda dərc olunan zəvat [şəxslər], bərvəchi-ati kəsbi-müvəffəqiyyət etmişlərdir [aşağıdakı kimi müvəffəqiyyət qazanmışlar].

Təzəpir rayonundan: Fəthəli Qurban oğlu 12 dərəcə, Məşhədi Yusif Əbdülhəsən oğlu 11 dərəcə, Hacıağa 8-3 dərəcə, Qəzənfər Əhməd oğlu 6 dərəcə, Əziz Nuru oğlu 6 dərəcə, Abuzər Almas oğlu 4 dərəcə, Hüseyn Həsən oğlu 3 dərəcə.

Şah məscidindən: Ağaəzim Zeynalzadə 12 dərəcə, Qurban Səlim oğlu 3-1 dərəcə.

* * *

Təşkilat idarəsinin kassiri Hacıağa Məhəmmədrəhimzadə 14 min manatın hesabatını verincəyə qədər vəzifəsindən uzaqlaşdırılmışdır.

**BİRJADA**

Kerenski minlik 950-1000 manata qədər, 250-lik kəndi qiymətindən 10 faiz və xırda 20 faiz əskikdir.

Nikolay 5 yüzlüyü 800-1600 manata qədər, yüzlüyü 250-380 manata qədər və xırdası 50-80 manata qədərdir.

Türkiyə kağız lirəsi 210 manat və Zaqafqaz bonu min manata 5 manat fəzlədir.

Türkiyə altun lirəsi 910 manat, altun onluq 1100 manat, imperial 750 manat və Avstriya altunu 2200 manatdır.

Gümüş manat 80 manat və xırda gümüş para 32 manatdır.

Bakı bonunun min manatı İranda 3 tümən 8 qran olmuşdur.

Susinin topu 1000 manata gedir.

## FİRQƏLƏR VƏ CƏMİYYƏTLƏR

### "Müsavat"da

**Tağıyevin fabrikasında**

İyirmi sənədən bəri Tağıyevin fabrikasında işləyən Ağabala Məhəmmədov nam bir fəhlə mərhum olduqda arvadı Tuğra xanım, 12 yaşında Hənifə və 11 yaşında Şəfi adlı iki oğlu qalmışdır. Biçiz [yoxsul] və müavinətsiz olaraq Tuğra xanım çocuqlarını fabrikaya işləməyə qoymaq istədikdə, çocuqlar qəbul edilməyirlər. Binaənileyh [ona görə], Tuğra xanım Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Müsalihə və Mürafiə [Barışıq və Məhkəmə] şöbəsinə müraciət etmişdi. Dünkü gün şöbə müdiri bu xüsusda müzakirə edib, çocuqları fabrikaya qəbul etdirmişdir.

**İclas**

Yekşənbə [bazar] günü təşrini-saninin 10-da axşam saat 6-da Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bakı Komitəsinin iclası təyin edilmişdir.

**İranlıların maarif cəmiyyəti "Tərəqqi"də**

Cümə günü təşrini-saninin 7-də axşam saat 4-də iranlıların maarif cəmiyyəti "Tərəqqi"nin adi idarə iclası təyin edilmişdi. Sədr Xudadad bəy Əzizbəyli iclası açıb məsaili-yövmiyyəni pişnihad [gündəlikdəki məsələləri təqdim] etdi:

1) Cəmiyyətin Dram şöbəsi haqqında;

2) Kişilərdən ötrü açılmış gecə dərsi xüsusunda.

[1 –] Cəmiyyətin Dram şöbəsi idarəyə bir təklif göndərmişdir.

Məlum olsun ki, Cəmiyyətin idarəsi ilə Dram şöbəsi miyanında [arasında] böylə bir qərardadları var idi:

1) Şöbənin teatro və səhnə ləvazimatından ötrü başqa bir sandığı (kassası) var.

2) Cəmiyyətdən ötrü hər qədər nümayiş verilərsə, on faizi bu sandığın nəfinə [xeyrinə] getməlidir.

3) İldə bir dəfə şöbə öz şərəfinə olaraq bir teatro mövqeyi-tamaşaya qoyub, hasil etdiyi məbləğ tamamilə bu sandığa varid [daxil] olmalıdır.

Bu iclasa şöbə böylə bir təklif pişnihad etmişdi:

İldə bir dəfə əvəzində şöbə öz şərəfinə olaraq iki dəfə teatro oynayıb, tamam mədaxilini öz sandığına götürməlidir.

Təklif bir çox uzun-uzadı müzakirə və mübahisələrə səbəb oldu. Axırda böylə qərar verildi ki, Cəmiyyət Teatro şöbəsini hər xüsusda təmin etməyi kəndi öhdəsinə götürür. Binaənileyh [ona görə], bundan sonra şöbənin xüsusi bir sandığı olmamalıdır.





Əlavə, Teatro şöbəsinin hər bir həvəskarı başqa bir teatroda iştirak etmək istədikdə, Cəmiyyətin idarəsinə müraciətlə izin istəməlidir. Bundan başqa, qət edildi ki, beş nəfərdən ibarət bir rejissor komissiyası həvəskarlar miyanından intixab edilsin [arasından seçilsin] ki, bu komissiya Teatro şöbəsini idarə etsin və lazım gələrsə, məvaciblə bir baş rejissor da dəvət edilsin.

Teatro şöbəsinin həvəskarlarının miqdarı 30 nəfərlə məhdud olmalıdır. Axırda qərar verildi ki, şöbə bu yaxınlarda gözəl və mütəntən [təntənəli] bir teatro mövqeyi-tamaşaya qoymaq üçün hazırlaşsın.

2 – Gecə kursunda kişilərlə bərabər çocuqların da kursda davam etmələri təklif edildikdə, təklif qətiyyən rədd edilmiş və gecə kursunu idarə etmək üçün Xudadad bəy Əzizbəyli kurslara müdir təyin edilmişdir.

Başqa bir çox məsələlər müzakirəsi gələcək iclasa saxlanıb, gecə saat 10-da iclas xitam buldu.

## GÜRCÜSTAN XƏBƏRLƏRİ

**Gürcüstan və Azərbaycan sərhədində**

Azərbaycan ilə Gürcüstan sərhədində Zaqatal mahalı və Siqnax qəzası əhaliləri arasında olan hadisələri təqib edən Xüsusi Müxtəlit [Qarışıq] Komissiya işlərində iştirakdan ötrü getmiş olan Daxiliyyə naziri direktoru Apakidze Siqnax qəzasından Tiflisə övdət etmişdir [qayıtmışdır].

**İtaliyada əmtəə alınması**

Baş Təchizat İdarəsi İtaliyadakı Gürcüstan heyəti ixtiyarına əmtəə alınmasından ötrü 5 milyon manat təxsisi [ayrılması] haqqında hökumət qarşısında təşəbbüsatda bulunmuşdur. Bu təşəbbüs hökumət tərəfindən təsvib edilmişdir [bəyənilmişdir].

**Kulaşidə bolşevik çıxışına dair**

Kutais mahal məhkəməsinin müddəiyi-ümumisi [prokuroru] Hüquq Nəzarətinə Kulaşi və Melin Cəmiyyətində bolşevik çıxışı 24 təşrini-əvvəl gündüz saat 2-də olduğunu xəbər verir. Milis və qvardiya tərəflərindən ittixaz edilən tədabir [görülən tədbirlər] sayəsində sabahı gün səhər çıxışın önü alınmışdır. Bir neçə müqəssirlər həbs edilmişdir. Zərərdidələr yoxdur. Təhqiqat davam edir.

**Gürcüstan dəmiryolları üçün un**

Gürcüstan dəmiryolları xidmətçilərinin ərzaq komitəsi Batumda xidmətçilər ehtiyacından ötrü 40 min pud Kanada unu almış və Tiflisə göndərmişdir.

**Gürcüstan üçün mal**

Baş Təchizat İdarəsi özünün İstanbuldakı acentəsindən Gürcüstan üçün İtaliyadan ora bir vapor vürud etdiyi [gəldiyi] xəbərini almışdır.

## TEATRO VƏ MUSİQİ

**"Nadir şah"**

Cümə günü Hökumət Teatrosunda Dövləti Teatro heyəti tərəfindən möv-

qeyi-tamaşaya qoyulan tarixi "Nadir şah" faciəsi müvəffəqiyyətlə oynandı. "Nadir şah" faciəsində ən çox əhəmiyyət artistlərin əlbisələrinə, qiyafələrinə, üz boyamalarına və pərdələrə verilmişdi. Demək olar ki, tərtibat cəhətincə "Nadir şah" faciəsi bu kərə "Nadir şah" əsərinin tarixində birinciliyi ehraz etdi [əldə etdi].

Lakin tərtibata bu qədər əhəmiyyət verildiyi halda, nasılsa artistlərə bir o qədər diqqət edilməmişdi. Buna görə bəzi artistlər qətiyyən kəndi rollarında deyildilər.

Ələkbər Hüseynzadə komikliyi ilə, komikliyindəki şəxsiyyəti ilə məşhur olduğu halda, Ədhəm xan kimi ciddi bir rolda səhnəyə çıxmışdı ki, pək zəif keçdi. Yalnız zəifliyi ilə qalsaydı. Ədhəm xanı səhnədə tamaşa edənlər, İran dərbarında [sarayında] şəxsi faydası üçün bir çox dolab [fırıldaq] və intriqa çevirən xain bir vəziri deyil, "Bizim kirayənişin özünü öldürdü" komediyasında Hacı Fərzəlini görürdülər.

Heydər xan rolunu Rza Darablı, Şah Təhmasib rolunu Həsən Səbri [Abdullazadə], Nadir şah rolunu Sidqi Ruhulla, Gürcü bəy rolunu Xəlil Hüseynov, Qoca yolçu rolunu Mirpaşa [Sadıqov], Gülcahan rolunu xanım Tanailidi, Cavad rolunu Əliislam [Dadaşov], Mirzə Mehdi xan rolunu Əhməd Qəmərli, Hüseyn şah rolunu Bağır Cabbarov – bəzisi müvəffəqiyyətlə, bəzisi də yaxşı – oynaya bildilər. Bunlardan Rza Darablı birinci pərdədə, Həsən Səbri beşinci pərdədə, xanım Tanailidi başqalarından təmayüz edirdilər [daha çox diqqət çəkirdilər].

*Teatroçu*

**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Berlin Darülfünunu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları. Qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*11449*

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**İstanbul doktor və bakterioloqu Nazim bəy Hüseynzadə**

Sifilis, terbier, şankr və daxiliyyə naxoşluqları, 914 və 606 müalicələri tətbiq edilir.

Qəbul olunur səhər saat 9-dan 10-adək, axşam saat 6-dan 7-yədək. Ünvan: Voronsovski küçə, nömrə 17, doktor Qarabəyovun müalicəxanası. Telefon nömrə: 49-87.

*1470*

**Otaq axtarıram**

Krımlı gənc bir müsəlmana bir otaq lazımdır. Otaq əvəzinə ailə çocuqlarına türkcə, rusca və ərəbcə dərs verə bilər.

Adres: "Təbriz" mehmanxanası nömrə 13.

*14014*

Azərbaycan Dövləti Teatro Heyəti Müdiriyyətinə opera və operetta oyunları üçün "xoristlər" lazımdır. Yaxşı səsə malik olanlar səsinin imtahanı üçün vis-direktor Zülfüqar bəy Hacıbəyliyə müraciət etməlidirlər. Ancaq yaxşı səsi olanlar qəbul ediləcəklər.

Adres: Dumski ploşçad, Haşımovun 11 nömrəli mülkü.

*Dövləti Teatro heyəti vəkili:*
*M. Ə. Sidqi*
*T-319*

Bazar günü, təşrini-saninin 9-da saat 5-də Birinci Azərbaycan Milli Ünas Gimnaziyasında (Zavedeniye Svyatoy Nını məktəbində) valideyn krujokunun ümumi iclası vaqe olacaqdır. İclas dəvət edir həman məktəbdə təlim alan şagirdlərin atalarını və atalıq vəzifəsini ifa edənləri (apekunları [himayəçiləri]).

İclasın qərardadları:

1) Kassanın hesabı;

2) Valideyn krujokunun keçən ilki fəaliyyətinə dair hesab;

3) Pedaqoji Şuraya, Valideyn krujokuna vəkillər intixab edilməsi [seçilməsi].

İclasa dəvət olunan şəxslər vaxtında gəlməsələr, iclas təşrini-saninin 16-da axşam saat 5-ə təyin edilir.

*14022*

Əhməd Hacı Əbülqasım oğlu Qasımov bununla ümuma, ələlxüsus Persidski küçədə 171 nömrəli ev, Bondarnı 21 nömrəli ev, Tatarski küçədə 96 nömrəli ev icarədarlarına məlum edir ki, Sarayinski küçədə 12 və 14 nömrəli ev, atadan qalan bütün göstərilən əmlak qardaşım Mahmud və Əbdüləhəd ilə bölünməmişdir. Ona binaən, mənsiz, yəni Əhməd Hacı Əbülqasım oğlusuz məzkur əmlakın barəsində qardaşlarımın heç bir binagüzarlığı ola bilməz. Hərgah mənsiz bir iş etmiş olsalar, qanunən ixtiyarları olmadığı kimi, mənim yanımda da əhliyyətsiz qalacaqdır. Mirasa daxil olan hər cür şərtnamələr

(doqovorlar, aktlar) məhkəmə qaydasıyla mənim tərəfimdən ləğv edilir. Bunları bildirməklə, yuxarıda göstərilən evlərin icarədar və kirayənişinlərinə məlum edirəm ki, verəcəkləri pulları ... aparsınlar.

*14025*

***Müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Bakı Müsəlman Paraxodçularının Cəmiyyəti**

səh. 171. "Ənzəli, Məşhədsər, Bəndər Gəz, Həsənqulı, Gümüştəpə, Ləngərud, Rudsər və Şahsavar": Ənzəli, Məşhədsər (indiki Babülsər), Bəndər Gəz, Gümüştəpə (yaxud Gümüşan), Ləngərud, Rudsər, Şahsavar (yaxud Tənkəbun) – İranın, Həsənqulı (indiki Əsənqulı) isə Türkmənistanın şəhərləridir.

"Dəniz qırağı": Naberejnaya (indiki Neftçilər prospekti) nəzərdə tutulur.

**Gürcüstan-Ermənistan etilafı**

səh. 173. "... ediləcək məsələləri": nöqtələrin yerində bir söz silinmiş, oxunmur.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 174. "2-ci məsələ Zaqatala şəhərinə 70 min manat faizsiz borc verilməsi": qəzetdə "70 min" yerinə "70 milyon" getmişdir.

**Sülh ətrafında**

səh. 183. "Bəyaz kitab": Bir sıra ingilisdilli ölkələrdə hökumətin gələcək siyasi kursunu izah yaxud müxtəlif mövzularda sənədləri ehtiva edən rəsmi nəşr.

**Türkiyədə**

səh. 187. "Dərsəadət" (hərfən: "səadət qapısı"): Osmanlı dövründə İstanbul şəhərini ifadə etmək məqsədi ilə işlədilmişdir.

"Mədrəs vilayətinin Bellari qərargahında... Meiktila, Sumerpur və Birmanya qərargahlarında": Bellari qərargahı Mədrəs vilayətində deyil, Karnataka ştatında yerləşirdi. Qəzetdə səhvən "Sumerpul" kimi getmiş Sumerpur əsir kampı isə Racastan ştatının Sumerpur şəhərində idi. Birmanya – cənub-şərqi Asiyada yerləşən Myanma ölkəsinin keçmiş adıdır; Meiktila kampı da bu ölkənin mərkəzi hissəsində eyniadlı şəhərdə idi.

"İmdadi-sihhi heyəti": Birinci Dünya müharibəsindən sonra Osmanlının şərq vilayətlərinin acınacaqlı halda olan xalqına tibbi yardım və ərzaq yardımı göstərmək məqsədi ilə Osmanlı Qırmızı Aypara Cəmiyyəti tərəfindən təşkil edilən heyətlər.

"Bayəzid": Türkiyənin şərqində, İran sərhədi yaxınlığında, indiki Doğubayəzid şəhəri.

**Bələdiyyə vəkilləri seçkisi**

səh. 189. "Ölkənin dair vaxtı...": mürəttib xətası yoxdursa, "dönən, dolaşan" mənasına gələn "dair" sözü, burada güman ki, "hər şeyin yolunda cərəyan etdiyi" mənasında işlənmişdir.

"Sentrodom": Mərkəzi Ev Komitəsi. Bakının ehtiyaclarının təmin edilməsi məqsədi ilə şəhər əhalisini polis dairələrinin (sahələrinin) sərhədləri daxilində qurulan ev komitələrində təşkilatlandıran və bu komitələrin vahid rəhbər orqanı olan qurum. Quruluş yığıncağı 1917-ci ilin dekabr ayının axırlarında keçirilmişdi.

"İmperator Nikolay küçəsi" (yaxud Nikolayevski): Bakıda, indiki İstiqlaliyyət küçəsi.

"General Sisianov": Bakıda, indiki Təbriz Xəlilbəyli küçəsi.

"İmperator 2-nci Aleksandr naberejnisi" (yaxud Dəniz kənarı; Naberejni): Bakıda, indiki Neftçilər prospekti. Qəzetdə "2-nci" yerinə səhvən "3-ncü" getmişdir.

"Pyotr Veliki meydanı" (yaxud Petrov meydanı, Petrovsk meydanı, Teatralnaya meydanı): Bakıda meydan olmuşdur; hazırda bu ərazidə Muzey Mərkəzi (Dənizkənarı park yaxınlığında) yerləşir.

"Romanov caddəsi": Bakıda, indiki 28 May küçəsi.

"Vorontsov": Bakıda, indiki İslam Səfərli küçəsi.

"General Vrangel": Bakıda, indiki Əhməd Cavad küçəsi.

**Vükəla Şurasında**

səh. 190. "Radio mövqifi məxaricatından ötrü ... manat": məbləğ silinmiş, oxunmur.

**Nəzarətlərdə**

səh. 191. "yarumal": bu sözə məna vermək mümkün olmadı.

**Firqələr və cəmiyyətlər**

səh. 194. "Cümə günü təşrini-saninin": qəzetdə "təşrini-saninin" yerinə səhvən "təşrini-əvvəlin" getmişdir.

**Gürcüstan xəbərləri**

səh. 195. "Xüsusi Müxtəlit Komissiya": "müxtəlit" [qarışıq; müxtəlif tərəfləri təmsil edən üzvlərdən meydana gələn] yerinə qəzetdə "müxtəlif" getmişdir.

**Teatro və musiqi**

səh. 196. "Teatroçu": "Azərbaycan" qəzetində bu imza Seyid Hüseyn Sadıqzadəyə məxsusdur.

**Əhməd Hacı Əbülqasım oğlu...**

səh. 198. "verəcəkləri pulları ... aparsınlar": nöqtələrin yerində bir söz silinib, oxunmur.